KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

№ 42 (333) 14-20 Dekabr, Çileya pêş, sal, 2015
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: Hêjaye: 40 qəpik

## 12 DEKABR ÜMUMMİLLİ LİDER, BÖYÜK HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜDÜR





Səh. 2

**İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib**



Səh. 3

**Əhməd DAVUDOĞLU: Türkiyə İraqda sabitliyin bərqərar olmasına çalışır**

**Демирташ:ЕС закрывает глаза на нарушения прав человека в Турции** Səh. 14

**Türk əsgəri Mosulda, Bərzani Ankarada** Səh. 3

**Civîneke girîng- Amerîka, Tirkiye û Herêma Kurdistanê** Səh. 13

**Serok Barzanî li gel Wezîrê Bergiriyê Tirkiye û Partiyên Kurdên Bakûr re civiya** Səh. 11

**Türkiyədə gərginlik: şəhər mərkəzi döyüş meydanına çevrildi** Səh. 3

**Жители Сулеймании устроили акцию протеста против присутствия турецких военных сил** Səh. 14



Səh. 8-9

**KÜRD TAYFALARI HAQQINDA**



Səh. 10

**Şəroye Bro**



Səh. 4-5

**"GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ"**

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Usubov Ramil İdris oğluna "Diplomat" qəzetinin baş redaktoru Əliyev Tahir Süleyman oğlu tərəfindən açıq məktub**



Səh. 6-7

# Ulu Öndər Böyük Heydər Əliyevin vəfatından 12 il keçdi

Azərbaycan Respublikasının üçüncü Prezidenti Heydər Əliyevin vəfatından 12 il keçir. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil alıb. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməyib.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləyib. 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib.

Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləyib, general-mayor rütbəsinə qədər yüksəlib. Həmin illərdə o, Leninqradda xüsusi ali təhsil alıb, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndə-



liyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayıb, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub.

Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilib. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 1998-ci il oktyabrın 10-da keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. 2003-cü il oktyabrın 15-də keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edib.

# İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın



ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir. Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq. Ulu Öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur". Bu sözləri deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də "Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi. Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən doğma Vətəni Azərbaycana gəldi. Özü də tək gəldi. Amma milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Düzgün, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında xalqının xilaskarına çevrildi. Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danıl-



maz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi...

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi. Dövlət başçısı İlham Əliyev və oğlu Heydər Əliyev Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü. Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

***president.az***

# Türk əsgəri Mosulda, Bərzani Ankarada

Şimali İraq kürd muxtariyyətinin başçısı Məsud Bərzani Ankarada Ərdoğan və baş nazir Əhməd Davudoğlu ilə görüşüb. Publika.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, kritik görüş bir saat çəkib.

Məlumata görə, görüşdə İŞİD terror təşkilatı ilə mübarizədə Türkiyənin mövqeyi müzakirə olunub.

Həmçinin, Ərdoğan Mosulda və buna bənzər digər münaqişəli bölgələrdə məzhəblərarası problemlərin tezliklə həll olunması haqda fikirlər səsləndirib.



# Əhməd DAVUDOĞLU: Türkiyə İraqda sabitliyin bərqərar olmasına çalışır

Türkiyənin Baş naziri Əhməd Davudoğlu deyib ki, ölkəsinin hazırda İraqla bağlı əsas vəzifəsi orada sabitliyin bərqərar olmasına nail olmaqdır. Onun sözlərinə görə, Türkiyə İraqın parçalanmasını və özünün isə İŞİD-lə qonşu olmasını arzulamır. Dünən Ə.Davudoğlu Ankarada İraqın Kürd Muxtariyyətinin rəhbəri Məsud Bərzani ilə görüşündə 130 türk əsgərinin Mosul şəhəri ətrafında yerləşdirilməsi və bunun "bir sıra dövlətlərdə narahatlıq doğurması" məsələsinə də münasibət bildirib: "Türk əsgərlərinin Mosulda olması bölgədə yalnız sabitliyi təmin etməyə xidmət edir. Biz bundan sonra da İraqı və İraqdakı kürd muxtariyyətini İŞİD yaraqlıları ilə mübarizədə müdafiə edəcəyik".



Görüşdən sonra jurnalistlər qarşısında çıxış edən Ə.Davudoğlu məlumat verib ki, Türkiyənin Milli Kəşfiyyat İdarəsinin rəhbəri Hakan Fidan və xarici işlər naziri Firudin Siniroğlu bu günlərdə İraq rəsmiləri ilə danışıqlar aparmaq üçün Bağdada yola düşəcəklər.

Kürd muxtariyyətinin rəhbəri Məsud Bərzani isə Türkiyə hökumətinin İŞİD-lə bağlı siyasətini dəstəklədiyini və bu istiqamətdə rəsmi Ankara ilə sıx əməkdaşlıq etməyə hazır olduğunu vurğulayıb.

Türkiyənin Baş naziri Rusiyanın Suriyanın şimalında həyata keçirdiyi son hava hücumlarını pisləyib. Onun sözlərinə görə, Rusiyanın əsas məqsədi İŞİD yaraqlılarını deyil, türkmən və sünni müsəlmanları hədəfə almaqdır. Ə.Davudoğlu rəsmi Moskvanı Suriya ərazisində "etnik təmizləmə" siyasəti həyata keçirməkdə günahlandırıb. Türkiyə hesab edir ki, Rusiyanın bölgədəki siyasəti yeni qaçqın axınına səbəb olacaq. Rəsmi Moskva isə əvvəlki kimi bu tənqidləri əsassız sayır. Yeri gəlmişkən, dünən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Məsud Bərzanini qəbul edərək onunla İraqda və bölgədə yaranmış vəziyyəti müzakirə edib. Hər iki lider terrora qarşı mübarizə çərçivəsində əməkdaşlığı gücləndirməyin vacibliyini vurğulayıblar. R.T.Ərdoğan bir daha nəzərə çarpdırıb ki, Türkiyə dövləti hər cür terroru, o cümlədən İŞİD və PKK ilə mübarizəni qətiyyətlə davam etdirmək əzmindədir. Bu arada məlum olub ki, ABŞ-ın dövlət katibi Con Kerri Rusiya liderləri ilə Ukraynadakı vəziyyəti və Suriyada siyasi böhranın həlli məsələlərini müzakirə etmək üçün gələn həftə Moskvaya səfər edəcək.

Prezident Vladimir Putinin Con Kerri ilə görüşəcəyi ilə bağlı sualı cavablandıran Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov belə bir görüşün baş tuta biləcəyini istisna etməyib. Xatırladaq ki, Con Kerri 2013-cü ilin may ayından sonra Moskvaya ilk dəfədir səfər edir. ABŞ-ın dövlət katibi Rusiyaya həmin səfəri zamanı Soçidə Prezident V.Putin və xarici işlər naziri S.Lavrovla görüşmüşdü.

# Putin orduya əmr edib: "Dərhal məhv edin"

Prezident Putin bildirib ki, Suriyadakı "terroristlər" Rusiyaya birbaşa hədədir

Rusiya prezidenti Vladimir Putin Suriyadakı qüvvələrinə qarşı təhdidlərlə bağlı Rusiya ordusuna "çox sərt tədbirlər" görməyi tapşırıb. Rusiya qüvvələrinə qarşı i stənilən hədəflər "dərhal məhv edilməlidir," o bildirib. Cənab Putin təfərrüatları açıqlamasa da, Türkiyə ilə Rusiya hazırda Rusiya təyyarəsinin Ankara tərəfindən vurulması üzündən münaqişədədir. Rusiya Suriyadakı hava zərbələrinə sentyabr ayında başlayıb və bunu Prezident Bəşər əl-Əsədin xahiş etdiyini bildirib. Kreml, mötədil Suriya müxalifətini hədəf alması ilə bağlı ABŞ-ın başçılıq etdiyi koalisiyanın ittihamlarını rədd edir və İslam Dövləti (İD) qruplaşmasına zərbələr endirdiyini bildirir. Cənab Putin müdafiə rəsmilərinin görüşü zamanı həmçinin bəyan edib ki, Rusiya hərbisi indi Azad Suriya Ordusunu (ASO) dəstəkləyir. ASO prezident Əsədə qarşı döyüşür və Rusiya tərəfindən hücumlara məruz qalıb. Hərçənd sonradan Kreml qeyd edib ki, Rusiya Suriya respublikasının qanuni hökümətini dəstəkləyir.



ASO cənab Putinin dediklərini şərh etməyib. "Biz Rusiya və ASO-nun birgə çalışmasına qarşı hansısa sübutlar görməmişik. Düşünürəm ki, bu, təbliğatdır," İD-ə qarşı koalisiyaya yaxın ABŞ rəsmisi BBC-ə deyib.

Bu arada isə Suriyanın şimalında ən azı 22 nəfər kürdlərin nəzarət etdiyi ərazidə 3 bomba hücumunda ölüb. Suriyanın müxalif siyasətçiləri Səudiyyə Ərəbistanının paxtaxtı Riyad şəhərində hökümətlə sülh danışıqlarının aparılması barədə açıqlama verib.

# Türkiyədə gərginlik: şəhər mərkəzi döyüş meydanına çevrildi



7 gündür fövqəladə vəziyyət elan edilən Diyarbəkr vilayətinin Sur mahalında PKK terror təşkilatına qarşı əməliyyatlar davam edir. Publika.az Türkiyə mediasına istinadən xəbər verir ki, davamlı olaraq bölgədən silah və partlayış səsləri eşidilir. Yerli media qarşıdurmalar Diyarbəkr şəhərinin mərkəzinə keçib.

Polis yolları barrikadalarla bağlamaq istəyən qruplara gözyaşardıcı qaz və təzyiqli su ilə müdaxilə edib.

Səlahiyyətlilər əməliyyatlarda bu günə qədər 10 PKK-çının öldürüldüyünü bildirib.

Surda yaşayan bəzi vətəndaşlar polisə zəng edərək bölgədən çıxmaq üçün kömək istəyib. Polis həmin vətəndaşları zirehi avtomobillərlə mahaldan kənara çıxarıb. Mardin vilayətinin Nusaybin mahalında baş verən qarşıdurmada isə 2 xüsusi hərəkat polisi yaralanıb. Yaralılardan biri həkimlərin müdaxiləsinə rəğmən dünyasını dəyişib.

# Rusiya kürdlərə ilk hərbi yardımını göndərdi

Rusiya İraq Kürd Muxtar Vilayətinə İŞİD-ə qarşı mübarizə aparması üçün hərbi yardım edib. Axar.az xəbər verir ki, bunu İraq mətbuatına açıqlamasında Rusiyanın Baş konsulu Viktor Simakov söyləyib. O, hərbi yardımın muxtariyyətə gəlməsi haqqında Kürd Muxtar Vilayətinin Daxili İşlər naziri Kərim Sindjariyə məlumat verdiyini bildirib. Qeyd edək ki, Rusiya İraq Kürd Muxtar Vilayətinə ilk dəfə hərbi yardım edib. Bundan öncə muxtariyyətə Almaniya, ABŞ və Çexiya hərbi yardım göndərib.



## Səudiyyədən kürdlərə 8 milyardlıq yardım

Səudiyyə Ərəbistanı İraq Kürd Regional Rəhbərliyinə 8 milyard dollar yardım edib. Axar.az xəbər verir ki, bu barədə İranın "FarsNyus" agentliyinə İraqın kürd siyasi partiyalar blokunun nümayəndəsi Sərvah Əbdülvalid məlumat verib. Bildirilib ki, İraq Kürd Regional Rəhbərliyinin rəhbəri Məsud Bərzaninin Səudiyyə Ərəbistanına səfəri zamanı bu barədə razılıq əldə edilib.

# Sətri xəbərlər

* Kürdüstan muxtariyyatının prezidenti Türkiyəyə səfər etmişdir. Məsud barzani Türkiyənin Milli təhlükəsizlik naziri, baş nazir və prezidentinin qəbulunda olmuşdur.

* Türkiyənin milli təhlükəsizlik naziri Bağdadda rəsmi səfərdədir. İraq rəsmiləri ilə keçiriləcək danışıqların əsas mövzusu isə Türkiyənin qeyri-qanuni olaraq İraqın Şimalına qoşun yeritməsidir.

* İstambul şəhərində ABŞ konsulluğuna hücum olub. Təhlükəsizlik əməkdaşları hücumu dəf edə biliblər.

* Kürdüstan muxtariyyatının prezidenti Məsud Barzani Almaniyanın Xarici İşlər naziri ilə görüş keçirmişdir.

* Kürdüstan XİN-nin sözcüsü: Rusiyanın hərbi təyyarələri Kürdüstan mülki aviasiyasına təhlükə yaradır.

* ABŞ: Türkiyənin İraqa qoşun yeritməsinin əleyhinəyik.

* Türkiyə Kürdüstanında hökumət qüvvələri və PKK arasında şiddətli döyüşlər davam edir. Belə ki, dekabrın 8-də Nusaybin şəhərində bir zirehli maşın partladılaraq 9 əskər öldürülmüşdür.

* Rusiya hökuməti Suriyaya dünyada ən müasir T90 tanklarını vermək niyyətindədir. Həmçinin Suriyada tank təmiri üçün zavod yaradacaq.

* İraq baş naziri Heydər əl-Abadi: Türkiyə ilə heç bir saziş bağlamamışıq və onların İraqa qoşun yeritmələri qeyri qanunidir.

* İraqın Kürdüstan bölgəsində xalq tərəfindən geniş miqyaslı etiraz aksiyaları başlanılmışdır. Vətəndaşlar prezident Məsud Barzani ilə Türkiyənin işbirliyinə, Türkiyənin İraq ərazisinə qoşun yeritməsinə etiraz edirlər. Etirazçılar qeyd edib ki, türklər sadəcə Kürdüstanı İraqa qarşı alət kimi istifadə etmək istəyirlər.

* İraq ordusu və könüllü batalyonlar ölkənin Rəmadi şəhərini İŞİD terrorçularından təmizləməyə müvəffəq olublar. Döyüşdə terrorçuların "müdafiə naziri" və Ramadi şəhəri üzrə koordinator da məhv edilmişdilər.

* Süleymaniyyə şəhərinin muzeyi Beynəlxalq Muzeylər yarışmasında iştirak edəcək.

* İraq prezidenti Fuad Masum: bizə dost olan İran İslam Respublikası və digər ölkələrlə terrorçulara qarşı əməkdaşlığımızı davam etdirəcəyik. Ölkəmizin torpaqlarında gözü olan düşmənlərə isə layiqli cavab veriləcək.

* Son həftə beynəlxalq yardım təşkilatları Suriya Kürdüstanına xeyli tibbi yardım etmişlər. Qeyd edilir ki, Suriya Kürdüstanında və eləcə də bütöv ölkə boyunca adi dərmanlar belə çatışmır.

* Suriya Kürdüstanının Qamışlo və Tell-Tamer şəhərində terror aktları nəticəsində onlarla dinc sakin yaralanmışdır.

* Bağdad mərkəzi hökuməti və Kürdüstan muxtariyyatı arasında yeni neft sazişi imzalanıb. Sazişdə bildirilir ki, Kürdüstanda çıxarılan bütün neft mərkəzi hökumətə təhvil verilməlidir. Əvəzində isə İraq öz büdcəsindən 17% gəliri Kürdüstan muxtariyyatına ayıracaq. Qeyd edək ki, öncə Kürdüstan nefti İraqın razılığı olmadan Türkiyəyə aşağı qiymətlərlə ötürülürdü. Əldə edilən qazanc əsasən məmur və oliqarxların hesablarına oturardu. Bunun nəticəsi olaraq Kürdüstan əhalisi 6 aya yaxın olaraq maaşlarını ala bilmirdilər.

* Səlahəddin Dəmirtaş: ABŞ-ın təzyiqi nəticəsində Avropa Şurası Türkiyədə baş verən qanunsuzluqlara və özbaşnalığa göz yumur.

# GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ

**Dünyanın inqilab sistemi, siyasətçiləri Azərbaycan xalqının xilaskarı, Ulu Öndər, Böyük Heydər Əliyev cənablarının inqilabından,**



**böyük siyasətindən dərs almalı və örnək götürməlidirlər. Beləki, Ulu Öndər, Böyük Heydər Əliyev güllə atmadan, xalqın xahişi və tələbi ilə hakimiyyətə gəldi, Azərbaycanı və Azərbaycanda yaşayan azsaylı xalqları böyük fəlakətdən xilas etdi.**

Bəli Ümummilli lider, Böyük Heydər Əliyev mülki geyimdə təyyarədən düşdü və ilk işi qardaş qırğını baş verən Gəncəbasara getdi, silahsız, qorumasız. Qısa müddətdə ölkənin sabitliyini pozan bütün silahlı qüvvələrə elə siyasi gediş etdi ki, onlar silahları ilə birlikdə gəlib “torbaya” girdilər və bir də ayıldılar ki, cəzaçəkmə məntəqələrindədirlər. Heç kimin təsəvvür etmədiyi qısa bir vaxtda atəşkəs elan etdi və respublikada sabitliyi yaratdı. Böyük humanistlik edərək, ömürlük həbsə məkum edilən o silahlı dəstələrin rəhbərlərini azadllığa buraxaraq dedi: “Siz gedin ailələrinizi idarə edin, sizlər dövləti idarə etməyə qadir deyilsiniz”.

Bəli bir güllə atmadan hakimiyyətə gəldi və yasxanaları toyxanalarla əvəz etdi, Azərbaycanı dünyaya tanıtdı, indiki sabitlik, inkişaf göz qabağındadır.

Görürsünüz, Suriyada neçə illərdir qardaş qırğını gedir, Mustafa Kamalın Cümhuriyyətin yaranmasında edilən qətliyamlar və yaranan gündən bu günə gədər qardaş qanı axıdılır. İnanırıq ki, Türkiyənin indiki baş naziri Rəcəb Təyyib Ərdoğan cənabları, Heydər Əliyev siyasətindən dərs alaraq Türkiyədə yüz ilə yaxın davam edən qardaş qırğınına son qoyacaqdır.

Səddam kimi diktator qan tökərək hakimiyyətə gəldi, gedən günə qədər həmvətənlərinin qanını tökdü və başına gələnlər hamıya məlumdur.

Belə diktatorların sayını artırmaq olar.

Lakin bunlardan fərqli olaraq, dünya siyasətçiləri öndərlərindən olan, Ulu Öndər, Böyük Heydər Əliyev bir güllə atmadan hakimiyyətə gəldi və müdrik siyasəti nəticəsində Azərbaycanımızı inkişaf etmiş ölkələr sırasına çıxardı. Bəli, dünya siyasətçiləri, rəhbərləri Ulu Öndər, Böyük Heydər Əliyev siyasətini öyrənib və bəhrələnməlidirlər.

Zaman keçdikcə, Ulu Öndər, Böyük Heydər Əliyev siyasətinin dərinliyini daha aydın görmək olur. Təsəvvür edin, əgər Ulu Öndər, Heydər Əliyev hakimiyyətə vaxtında gəlməsəydi, atəşkəs müqaviləsi bağlanmasayıdı, ermənilər Azərbaycan torpaqlarına olan təcavüzünü bir az da genişləndirərək, özlərinin dediyi kimi, Gənsəbasar da daxil olmaqla, Kürə qədər işğal edə bilsəydilər. Bir anlığa təsəvvür edin, Gəncəbasarın köçkünləri, erməniyə girov düşənləri, Gürcüstana, Rusiyaya qaçanları, malı-mülkü bir anın içində əlindən çıxaraq girov, qaçqın-köçkün halına düşən xalqın durumu necə ola bilərdı? Onsuz da problemlər içində yaşayan Borçalı mahalındakı soydaşlarımızın durumunu, Türkiyənin Azərbaycanla və türk dünyası ilə əlaqəsinin kəsildiyini düşünərək nəticəni ağıla gətirmək kifayətdir.Ermənilərin əlinə düşəcək Mingəçevir su anbarının suyu buraxılsaydı, bir an başımıza gələcək faciələrin böyüklüyünü düşünmək lazımdır. Kür çayı hövzəsində olan şəhər, rayon və kəndlərimizin əhalisinin durumunu göz önünə gətirmək kifayətdir.

Gəncəbasarın işğalı, Avropa qapılarının, Avropa bazarının üzümüzə bağlanması demək olardı. Biz məcburi yenə də keçmiş "ağamız" olan rus çinovniklərinin boyunduruğu artına yalvararaq, xahiş edərək keçməli idik.

Hələ mən Əlikram Hümmətovun "Talış-Muğan" Respublikasından, onun gələcəkdə İran İslam Respublikasına birləşməsindən, Sürət Hüseynovun "xanlığından", şimaldan rusların ləzgilərin "Sabval" təşkilatının əli ilə Siyəzənə qədər ərazi iddiasından, Balakən, Qax, Qəbələ kimi strateji bölgələrə göz tikənlərdən danışmıram.

Dünya dövlətlərinin rəhbərləri humanistliyi, uzaqgörənliyi, əfv etməyi, bağışlamağı Azərbaycanın cavan prezidenti İlham Əliyev cənablarından öyrənməlidirlər. İlham Əliyev cənabları neçə-neçə ömürlük həbsə məhkum olunmuş insanları əfv etdi, ümidsiz ailələri sevindirdi və Azərbaycandakı münaqişə ocaqlarını uzaqgörən siyasəti ilə aradan götürdü. İlham Əliyev cənablarının humanist siyasəti Türkiyə, İran, Suriya kim ölkələrin dövlət rəhbərlərinə örnək olmalıdır.

### *"Bakı-Tibilisi-Ceyhan" əsrin dünyəvi sülh müqaviləsi*

Bizi bütün bu bəlalardan Heydər Əliyevin uzaqgörən siyasəti qurtardı. Onun uzaqgörən siyasəti, həyata keçirdiyi dünyəvi layihələr, böyük dövlətlər, beynəlxalq birliklər, təşkilatlar tərəfindən dəstəkləndi, ölkədə siyasi sabitlik yarandı və dövlətimiz quruculuq yoluna qədəm qoydu. Son illər əhalinin ölkəmizin rifahı yaxşılaşdı, yüzlərlə parklar salındı, yollar abadlaşdırıldı, əfsanəvi körpülər tikildi, yeni kəndlər, qəsəbələr inşa edildi.

Hörmətli prezidentimiz, İlham Əliyev cənablarının operativ təşkilatçılığı sayəsində "Bakı-Tibilisi-Ceyhan" neft kəməri, Bakı-Ərzurum qaz kəməri vaxtında səmərəli çəkilməsi sayəsində, yüzlərlə ölkələri Azərbaycana bağladı. Bu inkişafa görə, indi dünya dövlətləri istəsələr də, istəməsələr də bizi dəstəkləməkdədirlər.

**X**əyalım məni o illərə apardı, Ulu Öndərlə olan görüşüm yada düşdü.....

1992-ci ilin dekabr ayı idi.Hər yerdə hərc-mərclik hökm sürürdü. Cəbhədə itaətsizlik, özbaşınalıq yaranmış, günü-gündən torpaqlarımız əldən gedir, şəhidlərimizin sayı artırdı. Azərbaycan yas içində idi. Ölkəmizin hər yerində yasxanalar qurulmuşdu. Hər gün cəbhədən xoşagəlməz xəbərlər gəlirdi. Heç kim, heç kimin ərizəsini oxumaq istəmirdi. Demək olar ki, ölkə idarə olunmaz xaosa çevrilmişdi.

Yuxarıda qeyd etdiyim kimi, o dövrlərdə Azərbaycanda böyük hərc-mərcliklər nəticəsində vətəndaş müharibəsinin başlamasına zəmin yaranmışdı, qardaş qırğını başlamışdı. Bunu görən xalq, xalqımızın dahi oğlu, əzəli və əbədi milli liderimiz Heydər Əliyev cənablarını Bakıya dəvət etdi

Heydər Əliyev yenidən hakimiyyətə gəldi və tariximizi, dinimizi, dilimizi, mənəviyyatımızı, parçalanmaq üzrə olan Vətənimizi xilas etdi.

O, Azərbaycan xalqını, Azərbaycan dövlətini məhv olmaqdan, dünya xəritəsindən silinməkdən birdəfəlik xilas etdi. Ölkəmizdə yaşayan milli azlıqlar Heydər Əliyevi, onun apardığı dünyəvi siyasətini böyük məhəbbətlə sevirlər və dəstəkləyirlər. Bu sevgi, bu məhəbbət xalqımızın ürəyində əbədi qalacaq. Çünki xalqımız və ölkəmiz üçün taleyüklü anlarda, düşmənlərimiz etnik azlıq amilindən istifadə etmək istədilər. Azərbaycan xalqının ayrılmaz hissəsi olan azsaylı xalqlar fəlakət qarşısında idilər. Məhz vaxtında hakimiyyətə xalq tərəfindən gətirilən Heydər Əliyev cənabları onları bu fəlakətdən xilas etdi.

Üç saata qədər o müdrik insanla söhbət etdik. Olduqca sakit, səbr və təmkinlə bizi dinlədi. Müdrik, qayğılı, mavi okeanlar kimi sonsuz, dərin və mənalı gözləri ilə sanki insanların qəlbini, düşüncəsini oxuyurdu. Zaman keçdikcə, həqiqətən onun nə qədər uzaqgörən siyasətə malik olduğunu daha çox dərk etdim.

O, Azərbaycanımızın inkişafı və dirçəldilməsi üçün bir çox müqavilələr və kontraktlar bağlayıb, dəyərli görüşlər keçirib. Bu müqavilələrlə o, Azərbaycanımızı dünya dövlətlərinə tanıtdı, dünya dövlətlərini Azərbaycana bağladı və dünya səhmdarlarını Azərbaycana sərmayə qoymağa sövq etdi. Azərbaycanımız üçün çox dəyərli olan bu müqavilələrdən biri də "Bakı-Tbilisi-Ceyhan"əsrin müqaviləsidir. Bu müqavilənin imzalanmasını düşünəndə, insana yalnız iqtisadi mənfəət və neft ixracatı gəlir. Lakin bu məsələ barədə dərindən düşünəndə görürük ki, müdrik insan, xalqımızın ulu öndəri, Heydər Əliyev bu müqavilə ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Türkiyə, Avropanın bir sıra dövlətlərini, eləcə də ABŞ-nı və bu ölkələrlə əlaqəsi, bağlılığı olan ölkələri biri-birinə bağlayıb və sazişsiz, müqaviləsiz bu ölkələr arasında sanki sülh müqaviləsi imzalayıb. Bu ölkələr bundan belə biri-birinin müdafiəsinə qalxmağa, biri-birinin sözünü deməyə, arxa durmağa, yardım etməyə məcburdurlar. Çünki Ulu Öndərin uzaqgörən siyasəti sayəsində bu ölkələr özləri də bilmədən biri-birinə bağlandı və özü də elə güclü qüvvə ilə bağlandı ki, bu bağlı-



# GÜLLƏ ATMADAN HAKİMİYYƏTƏ GƏLƏN DÜNYA SİYASƏTÇİSİ



lığı heç bir qüvvə poza bilməz.

Hörmətli prezidentimiz İlham Əliyev cənabları vaxtında “Bakı-Tbilisi-Ceyhan” neft kəmərinin inşasına başladı, onunla bərabər “Bakı-Qars” qaz kəmərinin bünövrəsini qoydu və həyata keçirdi. Azərbaycanımız üçün həyati əhəmiyyəti olan “Bakı-Axalkalaki-Qars” dəmir yolunun müqaviləsinə qol çəkdi və Gürcüstan, Türkiyə rəhbərləri ilə birlikdə, bu proyektin təməlini qoydu. Bu müqavilələr bir çox ölkələrə böyük həyati əhəmiyyət kəsb etsə də, hər zaman bizi və bizim kimi ölkələri “boyunduruq”da saxlayan Rusiya kimi hegemon ölkələrə sərfəli deyildi. Neçə illərdir ki, Qarabağ məsələsini meydana atan və həllinə əngəl olan Rusiya, günü-gündən qüdrətlənən, güclənən və Avropa birliyinə, NATO-ya yaxınlaşan Azərbaycanı və Gürcüstanı işğal etmək üçün yeni yollar axtardı və Qarabağ kimi, babaları Nikolayın dövründən yandırılan ocağın odu artırıldı. Gürcüstanın səbirsiz prezidenti Saakaşvilinin ucbatından ocağa benzin töküldü. Nəticədə, Rusiya Gürcüstanı işğal etmək istədi.Böyük arzularla yaşayan Rusiya, əsrlərdir həzm etdiyi Bakı neftinin Avropaya nəqlini sindirə bilmirdi. Ona görə də Gürcüstanı işğal etmək istədi ki, bəlkə Azərbaycan və Azərbaycan nefti onun ixtiyarına keçsin və Azərbaycan yenidən Rusiyanın boyunduruğuna girsin.

Lakin Rusiya hələ də başa dyşmək istəmir ki, ölməz Ümummilli lider Böyük Heydər Əliyev cənabları Azərbaycan Respublikası, Azerbaycan xalqı üçün elə bir iqtisadi-siyasi yol qoyub gedib ki, bundan belə istəsələr də Azərbaysanı Rusiyanın əsarəti altına sala bilməyəcəklər.

Necəki Rusiya Gürcüstanı işğal edə bilmədi və Gürcüstandan çıxarılarkən Osetiyanı və Abxaziyanı işğal edərək, müstəqil dövlət elan etdi. Özü də düşünmədən başını bəlaya saldı.

Onda görəsən Rusiya yüz illərdir öz azadlıqları uğrunda mübarizə aparan çeçen xalqının və Çeçenistanın, Tatarıstanın, Başqırdstanın və digər muxtar vilayətlərin müstəqilliyini niyə vermir və niyə tanımır? .Deməli, inamla deyə bilərik ki, ölməz Ümummilli liderimiz Böyük Heydər Əliyev dühası və Azərbaycan Respublikasının prezidenti, hörmətli İlham Əliyev zəkası sayəsində "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsi Gürcüstanı işğal olmaqdan xilas etdi.Və bu müqavilə sayəsində Azərbaycanla Gürcüstan arasında birdəfəlik sabitliyin təməl daşının qoyulması deməkdir və Gürcüstan məsələsi buna sübutdur. Bütün dünya ictimaiyyətinin gözü qarşısında Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsinə imza atmış ölkələr və bilavasitə bu proyektə bağlı olan şirkətlər qalxdı, Rusiyaya beynəlxalq qanunlar çərçivəsində təsir etdilər və işğalçı rus ordusunu Gürcüstandan çıxartdılar. Və Gürcüstanın NATO-ya üzv olması məsələsi sürətləndirildi. Bu məsələləri görən ermənilər də bu həqiqəti görür və Azərbaycanla olan konfliktin həlli yollarını axtarır. Artıq ermənilər də



görür ki, Rusiya onları çıxılmaz bəlaya salıb və bu bəlanın həlli torpaqların qayıdışı və qonşuluqda sülh şəraitində yaşamaqdır. Ona görə də "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsini, "Bakı-Tbilisi-Ceyhan" **əsrin dünyəvi sülh müqaviləsi** adlandırsaq daha düzgün olar.

Bəli, danılmaz faktdır ki, bu gün minlərlə müxtəlif dünya ölkələrinin şirkətləri, səhmdarları Azərbaycanda bünövrə salıb çalışırlar. Azərbaycanımız günü-gündən qüdrətlənir, inkişaf edir, gözəl binalar ucaldılır, əvəzolunmaz yollar salınır, əfsanəvi körpülər qurulur, fabrik və zavodlar açılır. Ölkəmizin hansı guşəsinə gedirsən get gözəl parklar, istirahət zonaları, abad yollar görərsən. Respublikamızın bütün şəhər, qəsəbə və kəndlərində yeni, gözəl göz oxşayan binalar tikilir, ucqar rayonlarımıza qaz və rahat yollar çəkilir. Küçələrimizdə, həyətlərimizdə, əyalətlərimizdə müxtəlif çeşidli və markalı rahat maşınlar göz oxşayır. Xalqımızın maddi durumu günü-gündən yaxşılaşır, əlil və qocaların, imtiyazlı vətəndaşlarımızın maaşları artır. Xalqımız firəvan həyat sürməyə başlayıb.

Biz inanırıq ki, xalqımız Ulu Öndərin xidmətlərini heç vaxt unutmayacaq, daim Heydər Əliyev siyasətini dəstəkləyəcək! Azərbaycan xalqı Böyük Heydər Əliyev ideyalarının həyata keçirilməsi naminə, ömrümüzün sonuna kimi çalışacağıq və onun ideyalarını yaşatmaq üçün, möhtərəm prezidentimiz, İlham Əliyev cənablarına yaxın dəstək olacağıq. Hörmətli prezidentimiz İlham Əliyev cənablarının indiki xarici və daxili siyasəti nəticəsində Vətənimiz günü-gündən çiçəklənir, gözəlləşir. Biz inanırıq ki, Vətənimiz Azərbaysan dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarında olacaqdır və hörmətli prezidentimiz İlham Əliyev cənablarının bu siyasəti nəticəsində nəinki təkcə Azərbaycanda, eləcə də Qafqazda sülh və əmin-amanlıq bərpa olacaq və dünyanın qüdrətli ölkələri bizimlə dostluq və əməkdaşlıq etməyə çalışacaqlar.

Xalqımız Respublikamızda baş verən ictimai-siyasi hadisələri görür, dəyərləndirir və lazımınca qiymətləndirir.

Hamıya məlumdur ki, hörmətli prezidentimiz İlham Əliyev cənabları, istər ölkə daxilində, istərsə də dünya dövlətləri arasında, apardığı müdrik siyasəti nəticəsində dünya dövlətləri günü-gündən qüdrətlənən Azərbaysanımızla, onun rəhbəri hörmətli prezidentimiz İlham Əliyev cənabları ilə hesablaşırlar və ona hörmət və qayğı ilə yanaşırlar belə yanaşma xalqımız üçün, Respublikamız üçün fəxrdir.

Bəli, bu gün hörmətli Prezidentimiz İlham Əliyevin xoş sədaları respublikamızın hər yerindən gəlir.Əyalətlərimizin inkişafı üçün, inamla demək olar ki, hər gün bir neçə parklar, yeni məktəb binaları, xəstəxanalar, idman kompleksləri, fabrik və zavodlar,müxtəlif elm ocaqlarının açılışını edir. Bu işlər inkar edilməzdir. Xalqın gözü tərəzidir deyiblər. Biz inanırıq ki, xalqımız ölməz Ulu Öndər Böyük Heydər Əliyev cənablarının siyasətini həyata keçirən, hörmətli prezidentimiz İlham Əliyev cənablarına arxa olacaqlar.

İnamla demək olar ki, prezidentimiz İlham Əliyev cənablarının indiki siyasəti nəticəsində Vətənimiz günü-gündən çiçəklənir, gözəlləşir və dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarıda özünə yer tutub.





*Hazırladı:*
***Tahir SÜLEYMAN***

# Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Usubov Ramil İdris oğluna “Diplomat” qəzetinin baş redaktoru Əliyev Tahir Süleyman oğlu tərəfindən açıq məktub

## *Cənab nazir, istintaq idarəsinin əməkdaşları 40 m-lə 56 m-i fərqləndirə, əsli olmayan saxta sənədin saxtalığını isbat edə bilmirlərsə, istintaq idarəsində necə çalışırlar?*



Çox hörmətli Cənab Nazir, mən, Əliyev Tahir Süleyman oğlu, bir neçə dəfə Ulu Öndər Böyük Heydər Əliyev Cənabları ilə görüşən, Azərbaycanımızın quruculuğunda azdan-çoxdan əməyi olan, dəfələrlə bir sıra xarici ölkələrdə Azərbaycanımızın inkişafını və Azərbaycanımızın başına gətirilən faciələri, konfranslar keçirərək dünya ictimaiyyətinə çatdıran ,“Azərbaycan Kürdləri” İctimai Birliyinin sədri, “Diplomat” qəzetinin təsisçisi və baş redaktoru olaraq, il yarımdır qarşılaşdığım haqsızlıqla bağlı, Ölkə Prezidentinə, DİN-nə, MTN-nə, Respublika Prokurorluğuna, Korrupsiya İdarəsinə, Bakı Şəhər Prokurorluğuna, BŞBPİ-nə dəfələrlə müraciət etsəm də, savadsız və etinasız məmurlar sayəsində məsələyə heç bir aydınlıq gətirilməyib.

İş bilməz məmurların ucbatından, ya da kiminsə tapşırığına görə 10-dəqiqəyə öz həllini tapa biləcək bir məsələ, bir il altı aydır uzadılır. Nədən?

Bakı şəhər Baş Polis İdarəsinin İstintaq İdarəsinin rəisi Nazim İsmayılov, müavini Məmmədağa Əhmədov və müstəntiqi Əflatun Səlimov olmaqla, on bir aydır bu saxta sənədlərə görə niyə indiyə qədər cinayət işi açmayıblar? Adi bir iş 20 günə öz həllini tapıb qərar verilməlidir.

Belə bir adi məsələ on bir aya uzadılırsa, onda görəsən ölüm hadisələrinin açılması necə illər çəkər.

Saxta sənədlə bağlı tələbimə qarşı, dekabrın 13-də Bakı şəhər Baş Polis İdarəsinin İstintaq İdarəsinin rəis müavini, Məmmədağa Əhmədov kabinetin qapısını mənə göstərir, sanki, atasından qalma kabinetdir, unudur ki, dövlət xalq üçün onu bu kabinetdə oturdub, vəzifə verib ki, xalqa xidmət etsin deyə. Əksinə, məndən sənədlərin saxta olduğunu isbat etməyimi tələb edir. Əgər mən saxta sənədi isbat edəcəyəmsə görəsən Məmmədağa Əhmədovun o kabinetdə oturmasına ehtiyac qalırmı? Məncə, səhifədəki sənədlər və cizgilər, sənədlərin saxtalığına kifayət edəcək qədərdir. Görəsən bu dəlillər Məmmədağa Əhmədov üçün kifayət edəcəkmi?

- Bakı şəhər Baş Polis İdarəsində ƏSLİ OLMAYAN, SAXTALAŞDIRILMIŞ SƏNƏDİN SAXTASI İLƏ BAŞQASININ MÜLKÜNÜ SATAN İŞƏ BAXILMAMALIDIR, YOXSA CİNAYƏT İŞİ AÇMALIDIR?

- Çox hörmətli Cənab Nazir, yazaraq Sizə bildirirəm ki, Babayev Nəsrəddin Xəlil oğlu (tel:0503977213), xanımı Babayeva Südabə adına olan saxta cizgi sxemi ilə, mənə aid olan, torpaq sahəmi, dələduzluq yolu ilə, saxta sənədlə, saxta sənədin saxtası ilə, iki dəfə başqa-başqa adamlara satması barədə, ilk dəfə 17 dekabr 2014-cü il tarixli ərizə ilə müraciət etmişdim.

Nəsrədin Babayev, Südabə Babayeva və Nəzakət deyilən “qoçu”xanım, saxta sənədi bir daha saxtalaşdıraraq, 605-rəqəmini 556 – rəqəmi ilə əvəz etmiş, həm də bələdiyyə sədrinin imzasını saxtalaşdırmışlar. Sənədin əsli yoxdur və bu sənəd 9-saylı notariat kontoru tərəfindən təsdiq edilib. Əsli olmayan sənəd necə təsdiq edildiyi belli deyil!

-Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidovun göstərişinə əsasən, yenidən ilkin istintaq işi başlasa da, 11-aydır ki, müstəntiq Əflatun Səlimov saxta sənədlə bağlı hələ də Nəsrəddin Babayevə və Südabə Babayevaya gözün üstə qaşın var deməyib.

İşin gedişatından görünür ki, müstəntiq işə birtərəfli baxır. Marağı nədir bilinmir.

Xəzər Rayon Polis İdarəsinin Maştağa bələdiyyəsinə verdiyi sorğusuna, Maştağa bələdiyyəsi cavab verib:” Tahir Əliyevin cizgi sxeminin təsdiq olunmuş surətini sizə göndəririk, lakin Babayeva Südabənin cizgi sxemi Maştağa Bələdiyyəsinin arxivində olmadığı üçün ona məxsus cizgi sxeminin təsdiq edilmiş surətinin verilməsi qeyri mümkündür”.

Xəzər Rayon Məhkəməsi də, Nərimanov rayon Məhkəməsi də eyni cavabı verib. (Sənədlər səhifədə var)

Torpağın ölçüsü zamanı mən müstəntiq Əflatun Səlimovdan dəfələrlə tələb etdim ki, sənədin saxta olmağına baxmayaraq, 4-tərəfin iştirakı ilə mübahisəli yer ölçülsün və yerindəcə protokol bağlansın. Çünki mənə məxsus torpaq sahəsinin ölçüsü 25x40-kv.m-dir. Saxta sənəddəki ölçü isə 20x50-kv.m-dir, əlavə qarşısında 6-m yol göstərilir ki, o ərazidə o ölçüdə yer yoxdur.

Ərazi ölçülmədi, iki gün sonra müstəntiq məni çağıraraq, mənim

## Maştağa Bələdiyyəsinin məhkəməyə cavabları



№ 1374 «25» Noyabr 2014 il

Xəzər rayon, Polis İdarəsinin, 2-ci
PB-nin təhqiqatçısı, polis leytenantı
Cənab Elçin Qurbanova

Hörmətli Elçin müəllim!

Sizin 9/2-7977 saylı 11.11.2014-cü il tarixli sorğunuza cavab olaraq bildiririk ki, Maştağa Bələdiyyəsinin 33/8 saylı 07.04.2006-cı il tarixli qərarı ilə vət.Əliyev Tahir Süleyman oğluna qəsəbənin Xanlar yaşayış massivində 1000 kv.m. torpaq sahəsi, vət.Babayeva Südabə Məmməd qızına Maştağa Bələdiyyəsinin 33/7 saylı 07.04.2006-cı il tarixli qərarı ilə qəsəbənin Xanlar yaşayış massivində 1000 kv.m. torpaq sahəsi fərdi yaşayış evi tikintisi üçün verilmişdir. Vət. S.M.Babayevaya məxsus torpaq sahəsinin yerləşmə sxemi Maştağa Bələdiyyəsinin arxivində olmadığından həmin sxemin təsdiq edilmiş surətinin göndərilməsi qeyri mümkündür. Maştağa Bələdiyyəsi vət.T.S.Əliyevə məxsus torpaq sahəsinin təsdiq olunmuş yerləşmə sxeminin surətini Sizə göndərir.

Qoşma: 01 vərəqə.

Hörmətlə,

Maştağa Bələdiyyəsinin sədri: İ.N.Qurbanov



Azərbaycan Respublikası
Bakı şəhəri, Sabunçu rayonu
Maştağa Bələdiyyəsi

Ünvan: 370039, Maştağa qəs. H. Heybətov küç., 26° Bank rekvizitləri: VÖİN 9900001881, kod 805573
Tel: +(99412) 455 11 75 Azərb.Beynəlxalq Bankının Sabunçu filialı: m/h AZ03NABZ01350100000000002944

№ 1387 «15» Dekabr 2014 il

Azərbaycan Respublikası Bakı şəhəri
Xəzər rayon Məhkəməsinin hakimi
Cənab Rəşad Həsənova

Hörmətli Rəşad müəllim!

Maştağa Bələdiyyəsi Sizin 2(003)-4324/2014 saylı 02.12.2014-cü il tarixli sorğunuza cavab olaraq, Maştağa Bələdiyyəsi tərəfindən qəsəbənin Xanlar yaşayış massivində vət.Tahir Süleyman oğlu Əliyevə verilmiş 1000 kv.m. torpaq sahəsinin qərarının və yerləşmə sxeminin təsdiq olunmuş surətləri Sizə göndərilir.

Qoşma: 2 vərəqə

Maştağa Bələdiyyəsinin sədri: İ.N.Qurbanov

Maştağa Bələdiyyəsi

Ünvan: 370039, Maştağa qəs. H. Heybətov küç., 26° Bank rekvizitləri: VÖİN 9900001881, kod 805573
Tel: +(99412) 455 11 75 Azərb.Beynəlxalq Bankının Sabunçu filialı: m/h AZ03NABZ01350100000000002944

№ 176 «23» Noyabr 2015 il

Bakı şəhəri, Nərimanov rayon
Məhkəməsinin hakimi,
Cənab Vüsal Qurbanova

Sizin 2(005)-5594/2015 saylı, 18.11.2015-ci il tarixli sorğu məktubunuza cavab olaraq bildiririk ki, vət. Əliyev Tahir Süleyman oğlunun qəsəbənin Xanlar yaşayış massivi ərazisində fərdi yaşayış evi tikintisi üçün sənədləşdirilmiş 1000 kv.m.-dən ibarət torpaq sahəsinin təsdiq olunmuş plan sxemi Sizə göndərilir.

Vət.Babayeva Südabə Məmməd qızının adına sənədləşdirilmiş torpaq sahəsinin plan- sxeminin (cizgisi) surəti Bələdiyyənin arxivində olmadığından Sizə göndərilməsi mümkün deyildir.

Qoşma: 01 vərəqə

Maştağa Bələdiyyəsinin sədri: İ.N.Qurbanov

# Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Usubov Ramil İdris oğluna "Diplomat" qəzetinin baş redaktoru Əliyev Tahir Süleyman oğlu tərəfindən açıq məktub

## *Cənab nazir, istintaq idarəsinin əməkdaşları 40 m-lə 56 m-i fərqləndirə, əsli olmayan saxta sənədin saxtalığını isbat edə bilmirlərsə, istintaq idarəsində necə çalışırlar?*

yerimin cizgisinə Südabənin adını yazaraq imzalamağımı istədi, təbii ki, mən etiraz etdim.

Əksinə, müstəntiq Əflatun Səlimov, mənim yerimi qanunsuz zəbt edərək, heç bir icazəsi və sənədi olmadan, qanunsuz hasarlayan Babayev Nəsrəddin Xəlil oğluna və Babayeva Südabə Məmməd qızına, saxta sənədi Xəzər RPİ-nin 2-ci bölməsinə, tədqiqatçı Elçin müəllimə təqdim edən Nəzakətə qarşı cinayət işi açmaq əvəzinə, yerimi zəbt

aid olduğuna baxmayaraq, mübahisəli yer olduğu üçün, tikinti işi aparılmasına icazə verilməsin." Buna baxmayaraq hasar qanunsuz tikildi.

- Bu hüquq keşikçiləri hələ bilmirlər ki, Azərbaycan Respublikasının CM-nin 188-ci maddəsinin 1-ci bəndinə əsasən başqasının mülkünü qanunsuz zəbt etmək, hasarlamaq 8000 manat cərimə ilə və ya iki il həbs cəzası ilə cəzalandırılır. Görəsən Məmmədağa Əhmədov və müstəntiqi Əflatun Səlimovun bundan xəbərləri varmı?

- Azərbaycan Konstitusiyasında saxta sənədlə işə baxılır, yoxsa cinayət işi açılır?

- Görəsən İstintaq idarəsinin rəisi Nazim İsmayılov, müavini Məmmədağa Əhmədov və müstəntiq Əflatun Səlimov, Babayev Nəsrəddin Xəlil oğlundan və Babayeva Südabə Məmməd qızından, eləcə də Nəzakətdən, sənədin əslini niyə tələb etmir və "Siz qanunsuz olaraq bu hasarı nəyə əsasən tikmisiniz deyə," nə üçün soruşmurlar?

- Əsli olmayan saxta sənədin hardan və kim tərəfindən hazırlandığı niyə araşdırılmır?

- Saxta sənədi kim, kimə və hansı bilgisayarda (kompüterdə) düzəltdirib?

- Əsli olmayan saxta sənədin surətini 9-saylı notariat kontoru necə təsdiq edib?

- Xəzər RPİ-nin rəisi, başda Azər Muradov, İstintaq İdarəsinin rəisi Erol Əliyev, müstəntiq Ülvi



Abdullayev və sonda Bakı şəhər Baş Polis İdarəsinin İstintaq İdarəsinin rəisi Nazim İsmayılov, müavini Məmmədağa Əhmədov və müstəntiqi Əflatun Səlimov olmaqla, bu saxta sənədlərə görə nə üçün indiyə qədər cinayət işi açmayıblar?

-Əksinə onlar mənə deyirlər ki, "İsbat et ki, Nəsrəddin Babayevin və Südəba Babayevanın sənədləri saxtadır."

Mən onlara cavab verərək demişəm ki, "Cənablar, əgər siz bu saxtakarlığı görmürsünüzsə özünüzə başqa iş axtarın."

- Məncə, kimliyindən aslı olmayaraq, cinayəti ört-basdır edənlərin özləri də cinayəkardır!

Cənab Nazir BU QANUNSUZLUQ NƏ VAXTA QƏDƏR DAVAM EDƏCƏK?

Müraciətimizdən bir il altı ay keçməsinə baxmayaraq görəsən günahkarlar nə üçün qanun qarşısından qaçırılırlar?

11 aydır Sizin qəbulunuza yazılaraq düşmək istəsəm də, düşə bilməmişəm.

-Bakı şəhər Baş Polis İdarəsinin İstintaq İdarəsinin rəisi Nazim İsmayılov, müavini Məmmədağa Əhmədov və müstəntiqi Əflatun Səlimov olmaqla, bu saxta sənədlərə görə niyə indiyə qədər cinayət işi açmayıblar?..

- Çox hörmətli Ramil müəllim, sizdən artıq dərəcədə xahiş edirəm ki, savadsız və səhlənkar məmurlar vaxtında cəzalandırılsınlar.

Çünki belə məmurlar, dövlətçiliyimizə qarşı olaraq, çox hörmətli Cənab Prezidentimizin və Sizin imicinizə xələl gətirərək, xalqı incidir və dövlətdən narazı salırlar. Görün mən bu qədər incidilirəmsə, onda görəsən sadə xalq nələr çəkirlər?




-Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi .Bakı şəhər Baş Polis İdarəsinin rəisi, polis general-. mayoru,cənab Mirqafar Mircəfər oğlu Seyidova.

Surəti:

-Azərbaycan Respublikası, Bakı Şəhər Prokuroru, cənab Əziz Seyidova

Surəti:

-Bakı şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat idarəsinin rəisi Nazim İsmayılova

Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, S. Mehmandarov küçəsi, ev 25, mənzil 17-də yaşayan Əliyev Tahir Süleyma. oğlu tərəfindən Müstəntiq Əflatun Səlimova qarşı etiraz

Ərizəsi

-Bakı şəhər Baş Polis İdarəsində ƏSLİ OLMAYAN, SAXTALAŞDIRILMIŞ SƏNƏDİN SAXTASI İLƏ İŞƏ BAXILIRMI?

- Bakı şəhər Baş Polis İdarəsində ƏSLİ OLMAYAN, SAXTALAŞDIRILMIŞ SƏNƏDİN SAXTASI İLƏ İŞƏ BAXILIR, YOXSA CİNAYƏT İŞİ AÇILIR?

Hörmətli oxucular, bir neçə dəfə Ulu Öndər Böyük Heydər Əliyevlə görüşən, Azərbaycanımızın quruculuğunda azdan-çoxdan əməyi olan, dəfələrlə bir sıra xarici ölkələrdə Azərbaycanımızın başına gətirilən faciələri dünya ictimaiyyətinə çatdıran ,"Azərbaycan Kürdləri" İctimai Birliyinin sədri, "Diplomat" qəzetinin təsisçi və baş redaktoru olaraq, il yarımdır qarşılaşdığım haqsızlıqla bağlı Ölkə Prezidentinə, DİN-nə, MTN-nə, Respublika Prokurorluğuna, Korrupsiya İdarəsinə, Baki Şəhər Prokurorluğuna, Rafiq müəllimin rəhbərliyi zamanı BŞBPİ-nə dəfələrlə müraciət etsəm də, heç bir əhəmiyyəti olmadı.

-Sonda Bakı şəhər Baş Polis İdarəsinin yeni rəisi, polis general-mayoru, cənab Mirqafar Seyidova müraciət etdim, Allah razı olsun,çox sağ olsun ki, məni qəbul etdi, iş yenidən araşdırılmaq üçün istintaqa verilsədə, nədənsə iş bilməz məmurların ucbatındanmı, ya da kiminsə tapşırığına görə 10-dəqiqəyə öz həllini tapa biləcək bir məsələ, 10-aydır uzadılır. Nədən?

- Çox hörmətli Mirqafar müəllim, yazaraq Sizə təkrar bildirirəm ki, Babayev Nəsrəddin Xəlil oğlu tel:0555170613, mənə aid olan, torpaq sahəmi, dələduzluq yolu ilə, saxta sənədlə, saxta sənədin saxtası ilə, iki dəfə başqa-başqa adamlara satması barədə, ilk dəfə 17.dekabr 2014-cü il tarixli ərizə ilə müraciət etmişdim.

*İmza: Tahir Süleyman oğlu Əliyev*

*22.01. 2015-ci il əlaqə tel: 0503523318, 0552027353.*


almalı və razılaşdırılmalıdır. Şəhadətnamə alınması üçün Bakı şəhər Torpaq və Xəritəçəkmə idarəsinə müraciət etməlidir.

MAŞTAĞA BƏLƏDİYYƏSİNİN SƏDRİ S.S.İBRAHİMOV

Düzgün imza


Maştağa Bələdiyyəsi

Ünvan: 370039, Maştağa qəs. H. Heybətov küç., 26" Bank rekvizitləri: VÖİN 9900001881, kod 805573
Tel: +(99412) 455 11 75 Azərb.Beynəlxalq Bankının Sabunçu filialı: m/h AZ03NABZ0135010000000000294

№ 1392 «19» Dekabr 2014 il

Azərbaycan Respublikası Bakı şəhəri
Xəzər rayon Məhkəməsinin hakimi
Cənab Rəşad Həsənova

Hörmətli Rəşad müəllim!

Sizin 2(003)-4324/2014 saylı 17.12.2014-cü il tarixli sorğunuza cavab olaraq bildiririk ki, vət.Babayeva Südabə Məmməd qızına Maştağa Bələdiyyəsinin 33/7 saylı 07.04.2006-cı il tarixli qərarı ilə qəsəbənin Xanlar yaşayış massivində 1000 kv.m., Vət.Nəsrəddin Xəlil oğlu Babayevə Maştağa Bələdiyyəsinin 33/6 saylı 07.04.2006-cı il tarixli qərarı ilə qəsəbənin Xanlar yaşayış massivində 1000 kv.m. torpaq sahələri fərdi yaşayış evi tikintisi üçün verilmişdir. Vət. S.M.Babayevaya və N.X.Babayevə məxsus torpaq sahələrinin yerləşmə sxemi Maştağa Bələdiyyəsinin arxivində olmadığından həmin sxemin təsdiq edilmiş surətinin göndərilməsi qeyri mümkündür.

Qoşma: 02 vərəqə.

Hörmətlə,
Maştağa Bələdiyyəsinin sədri: İ.N.Qurbanov

**Maştağa Bələdiyyəsinin məhkəməyə cavabları**

edərək, BŞBPİ-nin rəisi Mirqafar müəllimin tapşırığından sonra, mənə aid olan sahədə qanunsuz tikdiyi hasarın otuz metrini uçurduğum üçün, müstəntiq Əflatun Səlimov CM-322-ci maddəsi ilə mənə qarşı cinayyət işi açıb. Bu hansı məntiqə uyğundur?

-Baxmayaraq hasar tikilməmiş, Xəzər Rayon Polis İdarəsinə və Xəzər RİH-nə, yazılı şəkildə müraciət edərək bildirmişdim ki, "Bu ərazi mənə


məsələ ilə əlaqədar olaraq 2-ci PB-nə ərizə ilə müraciət etmişdir. Daha sonra 2-ci PB-dən təhqiqatçı Arzuman İsmayılov da bələdiyyə sədrinə müraciət edərək bələdiyyədən bir nəfər nümayəndə dəvət etmiş və Nəsrəddin Bayabayevin iştirakı ilə ərazi ölçülmüşdür. Maştağa-Buzovna yolundan Xanlar yaşayış massivinə qədər 550 metrlik onun adına verilmiş ərazi cizgi-sxemlə uyğun gəlmişdir. Nəsrəddin Babayevin arvadı Südabə Babayevanın adına olan 605 metrlik cizgi-sxem də uyğun gəlmişdir. Lakin Nəsrəddin Babayev təhqiqatçı Arzuman İsmayılovun imza çəkməsinə etiraz etmişdir. Bunu görən Arzuman İsmayılov yoldan keçən vətəndaşlardan Nəsrəddinin akta imza çəkməsinə etiraz etməyinə görə şahidlik etmələrini xahiş etmişdir. O, Nəsrəddin Babayevin arvadı Südabə Babayevaya məxsus torpaq sahəsi ilə ona məxsus olan torpaq sahəsi bir-birinin 55 metr yaxınlığında yerləşdiyini bildirmişdir.

# KÜRD TAYFALARI HAQQINDA

***Qədim zamanlardan bəri Kürdüstanda, eləcədə digər dövlətlərdə müxtəlif kürd tayfaları məskunlaşaraq yaşamaqdadır. Hörmətli oxucular, bu tayfalar və yerəşdikləri ərazilər haqqında sizinlə məlumatlarımızı paylaşmağı özümüzə borc bildik.***

**İRAN İSLAM RESPUBLİKASI**

***Qərbi Azərbaycan vilayəti***

Vilayətdə məskunlaşan əsas kürd tayfaları:

- Cəlali, Maku ətrafında yaşayırlar;
- Mil (Milli, Milan), Maku ətrafında;
- Heydəranlu, Maku bölgəsinin cənub-qərbində, İran-Türkiyə sərhəddi boyu;
- Dumbuli (Dımli). Türkdilli kürd tayfasıdır. Koy və Səlmas bölgələrində yaşayırlar;
- Korasünnü, Kürdləşmiş türklərdir. Koy bölgəsinin cənub-qərbində yaşayırlar.
- Şəkkak, Səlmas bölgəsinin cənubunda yaşayırlar;
- Herki, Urmiya ətrafında;
- Zərza, Üşnaviyyə, İran-İraq sərhəddi boyunca;
- Bəqzadə, Urmiyanın cənubu
- Piran, Nəqadə bölgəsinin cənub-qərbində, İran-İraq sərhəddi boyunca
- Mamaş, Nəqadə ətrafında
- Manqur, Məhabadın cənub-qərbində
- Mukri (Mukriyan), Məhabad ətrafında
- Dehbokri, Məhabadın şərqində
- Qourak, Məhabadın cənubu, Sərdəşt ətrafı, Saqqız bölgəsinin şimal-qərbi
- Malkari, Sərdəşt ətrafında
- Susəni, Saqqız bölgəsinin qərb hissəsində
- Feyzullah-bəqi, Saqqızın şimal-şərqində.

***Şərqi Azərbaycan vilayəti***

Kürdlər əsasən Araz çayı və Sabalan dağı arasındakı bölgədə - Qaracağada (Arasbaran) yaşayırlar. Bölgədə əsas 6 kürd tayfası məskunlaşıb. Onlar dil cəhətdən assimilyasiyaya uğrayıblar və əksəriyyəti kürd dilini bilmirlər. Dincə - Şiə-müsəlmanlardır.

- Çələbianlı
- Məhəmməd-Xanlı
- Hoseynaklı
- Hacı-Əlili
- Həsən-bəyli
- Qaraçorlu (Qaraçanlı, Qaralı)

Bozğuş dağları silsiləsi və Qəzəl Ozan çayı arasında yerləşən Xalxal bölgəsində əsasən 7 türkdilli kürd tayfası yaşayırlar. Dincə - Şiə-müsəlmanlardır.

- Delikan
- Kulukcanlı (Şəkkakilərin qolu)
- Şatranlı (Şəkkakilərin qolu)
- Əhmədli
- Şadlı (Saadlı)
- Rəşvənd
- Mem'anlı

Vilayətin Miyanə bölgəsində Şəkkaki tayfası yaşamaqdadır.

***Kürdüstan (Kordestan) vilayəti***

Vilayətdə yaşayan əsas tayfalar:

- Sarşiv, Bane bölgəsinin cənubu, İran-İraq sərhəddi
- Tilaku'i, Kürdləşmiş türklərdir. Sonnata və Zağa bölgələrində yaşayırlar
- Bani Ardalan, Sənəndəc (Sənnə) ətrafında yaşayırlar. Bu tayfanın nümayəndələri yüzillər boyu Kürdüstan vilayətinin valiləri olmuşlar.
- Caff, Sənəndəcin cənub-şərqində
- Hulilan, Kirmanşahın cənub-şərqində

Kirmanşah və İran-İraq sərhədi boyunca yaşayan digər kürd tayfaları bunlardır:

- Qoran
- Gorus
- Kəlxor
- Sancabi
- Şərəfbəyani
- Kərindi
- Bacalan
- Nanakuli




- Zənqan
- Babacan
- Bəqzadə
- Qubadi
- Miraki
- Təxtan
- Zilan
- Əliaxa'i
- Dərveş
- Dəlazihir
- Duruyi
- Xalkan (Xallavənd).

Həmədan vilayəti:

- Tirkeşəvənd (Əlican, Əlimürşid, Rəhməti və Süleymani qolları)
- Comir (Comərd)
- Cuzikan
- Şahcan

Luristan vilayəti:

- Bayranvənd
- İtivənd
- Cudəki
- Kürd
- Arma'i (Delfan və Səlsələ qolları)

***Xuzistan vilayəti***

Vilayətdə əsasən iki böyük kürd tayfası yaşayırlar:

- Zənqan
- Cəlali

Hər iki tayfa Əhvaz şəhərinin şimal-şərqində yerləşən Cannək Qərmsir bölgəsində yaşayırlar.

Bu iki tayfadan əlavə olaraq, Əhvaz şəhərinin cənubunda, Karun çayı boyunca yerləşən 7 kənddə Al-bu-Kord adlı kürd tayfası da mövcuddur.

***Gilan vilayəti***

Vilayətdə əsasən 2 kürd tayfası məskunlaşıb:

- Rəşvənd
- Amarlı

Rəşvənd tayfası İraq Kürdüstanının Süleymaniyyə bölgəsində olan Baban tayfasının bir qoludur. Gilana I Şah Abbas tərəfindən köçürülmüşlər.

Həmçinin Amarlı tayfasıda Gilana İranın şimal-qərbindən köçürülmüşlər.

Bir yerdə dolanmayan iki kürd tayfası arasında ardı kəsilməyən müharibələr nəticəsində Rəşvənd tayfasının əksər nümayəndələri Gilandan Qəzvinə köçmək məcburiyyətində qalmışlar.

Amarlı tayfası hal-hazırda vilayətin cənub-şərqində yerləşən Məncil və Piraquh bölgələrində yaşayırlar.

***Mazandaran vilayəti***

Vilayətdə əsasən dörd kürd tayfası məskunlaşıb:

- Modanlı
- Cahanbəqli
- Xocavənd
- Kürdhacı

Hər dörd tayfa Mazandarana Nadir şah tərəfindən köçülürmüşlər.

Xocavənd tayfasını İranın qərbində yerləşən Gorus bölgəsindən Mazandarana köçürülmüşlər.

Modanlı və Cahanbəqli tayfaları vilayətin Sari bölgəsinin şimalında yaşayırlar.

***Qəzvin vilayəti***

Vilayətdə əsasən aşağıdaki tayfalar yaşayırlar:

- Ğiatvənd, Qəzəl Ozan və Şahrud çayı boyunca məskunlaşmışlar
- Kakvənd, Qərva bölgəsinin şimal-şərqində
- Rəşvənd, Alamut və Rudbar bölgəsi
- Ma'afi, Qəzvin-Tehran yolu boyunca

Ğiatvənd tayfası vilayətə Ağa Məhəmməd Xan Qacar tərəfindən köçürülmüşlər.

Qəzvində həmçinin bir neçə xırda kürd tayfası da var:

- Bacalan
- Behtu'i
- Camışqazak
- Cəlilvənd
- Kəlxor

**Mərkəzi (Tehran)**

Bölgədə əsasən Pazuki tayfası yaşayır. Vaxtı ilə "Pazuki"lər Ərzurum vilayətinin ən güclu tayfası idi. Lakin XVI-cı əsrdə gedən hərbi əməliyyatlar zamanı ağır zərbə alaraq, qismən məhv olmuşlar. Qalan kiçik bir hissə Tehranın Varamin və Ğar bölgəsində məskunlaşmışlar.

Həmçinin Tehran bölgəsində az sayda aşağıdaki kürd tayfaları yaşayırlar:

- Hedavənd
- Burdur
- Uryad
- Zərgər
- Kürd Baça
- Nanakuli
- Qaraçorlu (Qaralı, Qaraçanlı)
- Kəlxor

***İsfahan vilayəti***

Vilayətdə əsasən Bazincan (Bazian, Bozlu) adlı kürd tayfası məskunlaşıb.

İsfahanı əhalisi hələ qədim zamanlardan əsasən kürdlər təşkil edirdi. Şəhar Sasani kürd dövlətinin paytaxtı olmuşdur. Bir çox alimlər İsfahanı Kürdüstanın Şərq qapıları hesab edir.

Vilayətdə kürdlərə aid minlərlə toponimlər var. Şəhre-Kord adlı şəhəri də nimunə kimi göstərə bilərik.

***Fars vilayəti***

Vilayətdə 30 yaxın kürd tayfası var. Bunlardan əksəriyyətini vilayətə Kərim Xan Zənd tərəfindən köçürülmüşlər. Lakin orta əsrlər tarixçilərinin sözlərinə görə, bu bölgədə qədim zamanlardan kürdlər yaşamış və söz sahibi olmuşlar. Bəzi alimlərin fikirlərinə görə isə, kürdlər Farsa XI əsrdə, ərəb istilaçıları ilə birlikdə gəlmişlər.

Vilayətdə yaşayan ən böyük 5 kürd tayfası bunlardır:

- Raman'i
- İsmaili'i
- Karzubi
- Məs'udi
- Şəkani

Sadalanan tayfalar birləşərək Şabankara (və yaxud Çobanqara – Böyük Çobanlar) adlı tayfa birliyi yaratmışlar. Fars vilayətinin Simakan, Şiraz, Cəhrom və Buşehr bölgələrində yaşayırlar.

Vilayətdə yaşayan digər tayfalar Qaşqai tayfası ilə birləşərək ittifaq qurmuşlar. Bu tayfalar aşağıdakılardır:

- Zənqan
- Saqqız
- Kuruni
- Çeqini
- Burbur
- Uryad
- Ləki
- Vanda
- Kürdlü
- Kürd-Şuli

***Xorasan vilayəti***

Xorasan vilayəti İranın şimal-şərqində yerləşir. Vilayətdə 5 milyona yaxın kürd yaşayır. Vilayətin etnik tərkibi:

35% - kürdlər
30% - farslar
27% - türklər
8% - digər xalqlar.

Kürdlər bu vilayətə I Şah Abbas tərəfindən köçürülmüşlər. Dövlətin əsas məqsədi İranın şərq sərhədlərini köçəri türk tayfalarından qorumaq idi.

Vilayətdə yaşayan əsas kürd tayfaları bunlardır:

- Amarlı, Marusk bölgəsi, Nişapur bölgəsinin şimal-qərb hissəsində məskunlaşıblar
- Şadlı (Saadlı), Bocnurd bölgəsi
- Zəfəranlu, Şirvan və Quçan bölgələri
- Keyvanlu, Coveyn, Dərrəgaz və Radkan bölgələri
- Tupkanlu, Coveyn və Nişapur ətrafı
- Qaraçorlu (Qaralı, Qaraçanlı).

***Kerman vilayəti***

Vilayətdə əsasən iki kiçik kürd tayfası məskunlaşıb:

- Sardu (Sarduya)
- Mir-Kürd

***Bəlucistan vilayəti***

Bir çox alimlərin fikirlərinə istinad edib deyə bilərik ki, bəluclar kürd xalqının bir qoludur. Dil baxımından, antropoloji quruluş baxımından bəlucları kürdlərdən seçmək mümkün deyil. Bəlucların əksəriyyəti özləri "kürd" adlandırırlar.

Vilayətdə yaşan tayfalar bunlardır:

- Bəluc
- Zənd, Bampoşt bölgəsi
- Brahoyi

**TÜRKİYƏ**

Türkiyədəki kürdlərin bir qismi assimilyasiya olaraq "tayfa" anlayışını itirmişlər. Lakin bəzi bölgələrdə "aşirət institutu" hələ də öz mövqelərini saxlayıb.

Vilayətlər üzrə tayfaların adlarını sizə təqdim edirik:

**Adıyaman (Kürdcə - Səmsur):** Telya;

**Afyon:** Cahanbəqli;

**Ağrı (Aqri):** Cəlali, Saderli, Xalati, Heydəranlu, Zilan, Badeli, Adaman, Başman, Bazikli, Memani;

**Amasya:** Aruk;

**Ankara:** Amaranlı, Naşerli, Zirikan, Cudikan, Tirikan;

**Bitlis:** Mudəki, Xazali, Həsənanlı, Atamanikan, Cabbaran;

**Diyarbəkir (Aməd):** Diarbakri, Musek, Şeyxdüdanlı, Sarkişli, Dersimli, Xazali, Beşeri, Tirikan, Piran, Bəkiran, Rəşkutanlı, Milli (Mil, Milan);

**Elazığ:** Gorus, Qolbaban, Sinan, Aşmişart, Behirmaz;

# KÜRD TAYFALARI HAQQINDA

**Ərzurum:** Herka'i, Zirikan, Həsənanlı, Pizian, Rəşvan;

**Antep:** Delikan;

**Hakkari:** Kəka, Şəmsiki, Neri, Həkəri, Həsənanlı, Balikar, Dinari;

**Kayseri:** Hacıbanlı;

**Kırşehir:** Amaranlı, Taburoğlu, Bərəkətli;

**Konya:** Xalkani (Xallani);

**Malatya:** Sinaminli;

**Maraş:** Quqarişanlı, Kikan, Valiani, Nederli, Naşadira, Düğanlı, Delikan, Celikan, Balikan;

**Mardin:** Daxuri, Tur'Abidin;

**Muş:** Maməkan, Lulan, Şəkərli, Pəncinan, Silvan, Həsənanlı, Azlı, Panicari, Zərzan, Balikan;

**Siirt (Sert):** Miran, Musek, Kavian, Dersimli, Daxuri, Hüseyni, Cəziran, Pəncinan;

**Sivas:** Kuçeri, Ağçeşmi;

**Tokat:** Aruk;

**Tunceli (Dersim):** Dersimli, Milli (Mil, Milan);

**Urfa (Rıha):** Givaran, Aluş, Çapkasan, Abu Tahir, Əmirzan, Baran, Şəddadi;

**Van:** Mahmudi, Herka'i, İsa'i, Bruki, Sepikan, Düdəri, Xan'i, Celikan, Takuli, Tapian, Bərazan və müxtəlif yezdi tayfaları.

**Yozqat:** Maxani, Xatunoğlu, Taburoğlu;

### SURİYA

Suriyada kürdlər əsasən ölkənin şimal - Aleppo (Hələb), Afrin, Qamışlo, Hasake, Kobane və s. bölgələrində yaşayırlar. Suriyada yaşayan əsas kürd tayfaları bunlardır:

- Ma'afi
- Kilisan
- Şəmsoli
- Ketakan
- Qələndər
- Bərazi
- Hacaz
- Hirsa
- Şammar
- Cubur
- Milli
- Omerkan
- Kikari
- Mersini
- Pinar-Əli
- Miran

### İRAQ

Tayfaçılıq prinsipləri İraq Kürdüstanında dərin kök salmışdır. Hətta kürdlərin həyat və geyim tərzləri məhs bu prinsiplər üzərində qurulmuşdur.

Kürdlər əsasən İraqın şimalında və şərqində, İraq-İran sərhəddi boyunca yaşayırlar.

Bölgələr üzrə əsas tayfalar bunlardır:

**Ərbil (Kürdcə - Həvler):** Ako, Diza'i, Surçi, Qərdi, Herki, Barzan, Buli, Şirvan, Bıradost, Zarari, Xilani, Bərvari Bala, Bərvari Cırı, Xoşnav, Piran;

**Xaneqin:** Bacalan, Zənd, Leylani, Kaka'i, Şeyx-Bazini, Bibani, Baban, Dauda, Kaxevar, Palani, Kağanlı;

**Kərkük:** Şərəfbəyani, Bərzinci, Dılo, Talabani, Baban, Cabbari, Şuhan, Zənqan, Amarmel, Şaləhi;

**Məndəli:** Qara Alus;

**Mosul:** Şəkkak, Duski, Zibari, Misuri, Artuş, Sendi, Şənqali (yezidilər);

**Süleymaniyyə:** Baban, Caff, Merivani, Pişdar, Həmavənd, Həvrami, İsmayıl Əzizi.

### ERMƏNİSTAN

Ölkədə yaşayan kürdləri iki hissəyə bölmək olar: müsəlman və yezidi kürdlər.

Müsəlman kürd tayfaları bunlardır:

- Cəlali
- Həsənanlı
- Bruki
- Qaraçorlu (Qaralı, Qaraçanlı)
- Milli (Mil, Milan)
- Gorus
- Motki
- Karki
- Zilan
- Şəkkak

Yezidi kürd tayfaları:

- Sipki
- Sturki
- Bali

### AZƏRBAYCAN

Kürdlər Azərbaycanın avtoxon xalqlarından biridirlər. Bəzi alimlərin qənaətinə görə, 24 kürd tayfası Azərbaycana orta əsrlər zamanı I Şah Abbas tərəfindən köçürülmüşlər. Lakin qədimi əlyazmalara müraciət etsək görərik ki, kürdlər hələ bir neçə min il əvvəl bu torpaqlarda yaşayaraq özlərinə dövlət qurmuşlar. Azərbaycanda mövcud olan minlərlə toponim bunun əyani sübutudur.

Bölgələr üzrə yaşayan tayfaların adları bunlardır:

**Naxçıvan:** Cəlali, Kolanı, Həsənanlı, Qaraçorlu (Qaralı, Qaraçanlı), Bruki, Motki;

**Zəngəzur, Kürdüstan və Qarabağ:** Əlikyan, Bərqüşad, Gorus, Zənqan, Zodanlı, Mil (Milli, Milan), Qaraçorlu (Qaralı, Qaraçanlı), Əliyanlı, Babalı, Bozlu (Bazian), Həsənanlı, Gəlovçu, Hacısamlı, Kulukçi, Kulikanlı, Quluxanlı, Sultanlı, Təhməzli, Tərtərli, Fərihkanlı, Şadimanlı, Şeylanlı, Kolanı, Sisyan, Potanlı, Poşani, Şotlanlı (Şotanlı), Xocavənd, Qoran, Kürd, Əhmədli;

**Aran:** Qaraçorlu (Qaralı, Qaraçanlı), Mil (Milli, Milan), Kolanı, Kürd, Ləki, Lur, Zənd, Şadlı (Saadlı).

Azərbaycanda yaşayan kürdlərin əksəriyyəti assimilyasiya olduğundan "tayfa" prinsipləri əsasən məhv olmuş, onun yerini "nəsl" prinsipi tutmuşdur. Nümunə üçün sizə bəzi kürd kəndləri üzrə nəsillərin adlarını sadallyırıq:

**Laçın rayonu:**

- Zerti – Fatolar, Allahverdilər
- Minkənd – Şahsuvarlı, Şahverdilər
- Bozlu – Şərəfli
- Ağcakənd – Ləzgi, Miri, Köçəri
- Qarakeş – Səfiqulu, Ağalıoğlu
- Şeylanlı – İsaxanlar, Məmmədlilər, Şafiqlər, Çiçəklər
- Mirik (Həsənanlı) – Hopurlu, Damolar, Rutuklu, Əhmədli, İmanlı

**Kəlbəcər rayonu:**

- Oruclu – Qaraxanlar, Hüseynlər, Mayıllar, Məşədilər
- Şurtan – Nağılı
- Soyuqbulaq – Hüseynqulular
- Ağcakənd – Nəcikli, Əlirzalı, Mirikli, Mollalar
- Xallanlı – Ellazlar, Şükürlər
- Tatlar – Şanolar, Cəfərli, İsmayıllar
- Çıraq – Çorullu, Şavili, Xələfli.


***İstifadə edilmiş mənbələr:***

1. "İranika" ensiklopediyası (Böyük Britaniya)
2. Şərəf Xan Bitlisi, "Şərəfnamə"
3. İrac Afşar Sistani, "İlha, çadorneşinan wa tawayef-e aşarey-e İran, Tehran, 1987
4. İbn Əl-Balxi, "Farsnamə", 1921
5. "Antropology of İraq", 1940
6. Mardux Kürdüstani, "Tarix-e Mardux: Tarix-e Kord wa Kordestan", 1973
7. Василий Никитин, «Курды»
8. Cahangir Qa'em Mağami, "Aşayer-r Xuzistan", 1946-47
9. Hosayn-Ali Razmara, "Farhang-e coğrafiya'i-e İran VIII, 1953
10. Mark Sykes, "Kurdish tribes in Ottoman Empire", 1908
11. Parviz Varcavənd, "Sarzamin-e Qazvin", 1970
12. Məhəmməd-Əmin Zəki, "Xolasa tarix al-Kord wa'l-Kordestan", 1939.




Seymur Alxanov

# Bərzani Dəmirdaşla görüşdə Ərdoğanı təriflədi

Şimali İraq Kürd Regional Rəhbərliyinin sədri Məsud Bərzani ilə



Türkiyənin Xalqların Demokratik Partiyasının (HDP) liderləri arasında ötən gün baş tutan görüşün detalları bəlli olub. Axar.az Türkiyənin "Habertürk" qəzetinə istinadən xəbər verir ki, Bərzani görüş zamanı HDP-ni qarşıdurma siyasətini dayandırmağa çağırıb.

O, bu siyasətin heç kimə fayda verməyəcəyini bildirib: "PKK ilə sülh prosesinin pozulmasından çox kədərləndim. Bu məsələdə hökumətlə vasitəçilik edə bilərəm. Türkiyənin şərqində qazılan xəndəklər tez bir zamanda bağlanmalıdır. Müharibə heç kimə xeyir gətirməyəcək. Gərginlik bitməlidir. Bağdadla mübarizə apardığımız dövrdə şəhərlərdən birini almaq istəyirdik. Lakin atam Mustafa Bərzani "müdafiə edə bilməyəcəyiniz şəhəri işğal etmək həm oradakı xalqa, həm də özünüzə zərər verər", - deyərək mane olmuşdu".

Bərzani görüş zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ünvanına təriflər yağdırıb: "Türkiyə Kürdüstanın gələcəyi üçün çox önəmlidir. Uzun illər əvvəl dünya ölkələrini kürd problemi ilə bağlı məlumatlandırmaq üçün məktublar göndərdik. Həmin vaxt Türkiyənin Berlin səfirliyi məktubumuzu qəbul etmədi. Lakin Ərdoğan iqtidara gəldikdən sonra Ərbilə səfər etdi və onun bu məsələdə nə qədər həssas olduğunu gördüm. O, kürd probleminin həllini istəyir. Əvvəllər heç bir şeyimiz yox idi, lakin bu gün ən azından rəsmi görüşlərdə Kürdüstan bayrağını qoya bilirik".

Qeyd edək ki, Bərzani 9-10 dekabrda Türkiyədə rəsmi səfərdə olub.

# "İŞİD-in dövlətə çevrilməsinə imkan vermək olmaz"

"Aydınlaşdırmaq lazımdır ki, niyə Türkiyə antiterror koalisiyasının üzvü



olduğu halda, Suriyada ABŞ-ın özünə potensial tərəfdaş hesab etdiyi kürd döyüşçülərini bombalayır". APA-nın məlumatına görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov İtaliya mətbuatına açıqlamasında deyib. Onun sözlərinə görə, Suriyada İŞİD-ə qarşı vuruşan qüvvələrdən biri də kürd silahlılarıdır: "Həmin insanlar əsasən "Demokratik İttifaq" partiyasının üzvləridir. Türkiyə nöqteyi-nəzərindən onlar düşməndir".

S. Lavrov qeyd edib ki, bəzi ölkələr tərəfindən Suriya prezidenti Bəşər Əsədin istefası tələb süni xarakterlidir: "Burada bəzi nüanslar var. Artıq onlar Əsədin dərhal istefasını tələb etmirlər, onun siyasi keçid prosesində iştirakına imkan verirlər. Lakin mütləq elə bir tarix görmək istəyirlər ki, həmin vaxtdan o artıq səlahiyyətlərini icra etməsin. Biz bu yanaşmanı süni, beynəlxalq hüquqa və demokratiya prinsiplərinə zidd hesab edirik". Rusiyalı diplomatın fikrincə, Rusiya Türkiyənin Su-24 təyyarəsini vurmasını Suriyada siyasi prosesi pozmaq cəhdi kimi qiymətləndirir: "Həmin gün baş verənlərlə bağlı qiymətləndirməmiz dəyişməzdir. Fikrimizcə, bu ya antiterror səyləri pozmaq, ya Rusiyanın Suriya hava məkanında fəaliyyətinə əngəl törətmək, ya da Venesiya danışıqları çərçivəsində aparılan siyasi həll prosesini pozmaq cəhdidir". Lavrov onu da bildirib ki, əgər tərəflər öz maraqlarına xidmət etmək məqsədi güdməsələr, geniş beynəlxalq antiterror koalisiyasını qurmaq mümkündür: "İŞİD kimi təşkilatlar insanlığa nifrəti təbliğ edir. Onların dövlətə çevrilməsinə və islamla bağlılıqlarının olması barədə illüziyaların yaranmasına imkan vermək olmaz. Onlar insanlığın düşmənidir". www.ann.az

# Suriyanın Tel-Tamp şəhərində törədilən terror aktı qurbanlarının sayı 58-ə çatıb

Suriyanın Tel-Tamp şəhərində törədilən terror aktları nəticəsində ən azı 58 nəfər ölüb, 100-dən çox insan yaralanıb. SalamNews-un RİA "Novosti"yə istinadla verdiyi xəbərə görə, bu barədə şəhər xalq özünümüdafiə dəstəsindəki mənbə məlumat verib: "Dünənki terror aktları nəticəsində 58 nəfər ölüb. Ölənlər arasında beş xristian assuriyalı var, qalanları kürdlər və ərəblərdir.

Yaralılar təcili tibbi yardım avtomobillərində Ras-əl-Eyn şəhərindəki xəstəxanalara çatdırılıblar. Tibbi ləvazimatlar çatışsa da, ağır yaralılar var.

Partlayışlardan biri fəaliyyətdə olan hərbi hospitala (kürd özünümüdafiə qüvvələrinə məxsusdur - red.) xeyli ziyan vurub." Dünən axşam Tel-Tampda üç terror aktı törədilib. Minalanmış avtomobillər insanların çoxluq təşkil etdiyi küçələrdə və hərbi hospital önündə partladılıb.

# Şəroye Bro

Şəronun musiqisi özünəməxsus ifası ilə bu günümüzdə də sevgi ilə qarşılanır. Onun səsi Sipan və Cəzirədə də dinlənilmişdir. Yəqin çox az insan öz həyatı boyu xalqın sevgi və rəğbətini Şəroye Bro qədər qazana bilmişdir. Bu əfsanəvi insanın mahnıları hələ də dünyanın bir çox guşələrində ifa edilir, XX əsrdə Gürcüstan və Ermənistanda kürd milli hikmətinin əsasini qoyan bir nəslə mənsubdur. O, 1900 ildə Türkiyənin Sürməli rayonunda anadan olmuşdur. Onun ailəsi Osmanlı imperiyasından bizim minlərlə soydaşlarımız kimi yezidi-kürdlərə qarşı törədilən soyqırımdan xilas olmaq üçün Ermənistana, sonra isə Gürcüstana qaçmağa məcbur olublar. Beləliklə, o, uşaq yaşlarından Ermənistanın Talin rayonunun Tlik kəndində yaşamağa başlayır. Ailəsi malakan-rusların yaşadıqları kənddə məskunlaşır. Orada o, rus dilini öyrənməyə başlamış və sonradan bu dili sərbəst mənimsəmişdir. Kilsə-prixod ruhanilərinin ixtiyarında olan məktəbin ikinci sinfini bitirmişdir.

Atası çoban idi və balaca Şəro tez-tez atası ilə otlağa, quzuları otarmağa gedirdi. Sıx ağacların altında dincələn uşaqlar kiçik budaqlardan özlərinə tütək düzəldir və bəzən tanınan bəzən isə özlərinin bəstələdikləri mahnı parçaları ifa edirdilər. Məhz bu dövrdə Şəroye Bronun kürd milli musiqi və mahnıları ilə ilk dərin tanışlığı olmuş, öz əlləri ilə düzəltdiyi tütəyi isə ilk musiqi alətinə çevrilmişdir. Kürd musiqi və melodiyalari balaca Şəronu özünə cəzb edir, o, özü şeirlər yazır və bu şeirlərə mahnılar bəstələyirdi. Təəccüblü deyil ki, üzləşdiyi təbiət zənginliklərini və həyatda xeyirin şər üzərindəki qələbəsini, romantik yaşam formasını incə cizgilərlə öz əsərlərinə ötürməsi onun fərdi yaradıcılığını müəyyən özünəməxsus şəklə salmışdır.

15 yaşında öncə atasını ardından isə anasını itirdikdən sonra Şəro özünü bütünlüklə musiqiyə həsr edir. O, böyük məmnuniyyətlə dəvət aldığı kürd şənliklərində mahnılar ifa edir və beləcə kürd milli mədəniyyəti haqqında biliklərini dərinləşdirir.

Kürd mahnılarına olan sevgisi onun qəlbində büsbütün möhkəmlənmişdi. Və bu əlbəttə ki, milli ənənələrlə, atalarımızın geyindikləri rəngarəng kostyumlarla, keçirilən toy şənlikləri ilə əlaqədar idi.

Çobanlar aprel ayında ailələrilə birgə özləri ilə zəruri avadanlıqlar götürərək yayaqlara gedirdilər. Bütün əşyalar atlara yüklənir və dağlara uzun səyahət başlayırdı. Dağda hər ailə özünə bir oba (dağ yamaclarında çobanların yaşadıqları və qoyun otardıqları ərazilər; obalar ailələrə görə ayırd edilirdi və bir-birindən 2-3 kilometr məsafədə yerləşirdi) düzəldir və "kon"-larda (alaçıq) yaşamlarını davam edirdilər. Məhz bu ərəfələrdə də igidlər özlərinə xanımları bəyənirdilər, toy şənlikləri qeyd edilməyə başlayırdı. Ermənistanın dağ düzənliklərində keçirilən kürd toylarında iştirak etmək şansı əldə edən kürd toylarının rəngarəngliyindən, şux rəqslərindən və kürd mədəniyyətinin bütün koloritlərinin təkrarolunmazlığından heyran olurdular. Şənliklər üç gün, üç gecə davam edirdi. Dəvət olunan qonaqlar, həm kişilər, həm qadınlar, həm də uşaqlar dağların qoynundan atlarla gəlir. Oxuduqları mahnıların səsi isə hər yanı bürüyürdü. Bu qürurla dayanan dağların qoynunda əvəzsiz mənzərə idi. Ən çevik və sürətli olan gəlinə yastığı çatdırar və bəydən başlıq parası almaq şansı əldə edərdi. Toy üç gün davam edər, gecə təndirlər qalanar, çörəklər bişirilərdi. Təndirin aşağı hissəsinə odun qoyub ocaq qalayar və alovun işıqlandırdığı ərazidə yenə çalıb oxuyar, niyyət tutar və şənlənməyə davam edərdilər. Şübhəsiz ki, ən istəkli arzulardan biri də məclisdə Şəroye Bronun oxuyub çalması idi. Onun mahnılarının əsas mövzusu real mövzulardır və o, buna bütün həyatini həsr etmişdir. Ona görə də dəvət olunan qonaqlar tez-tez musiqiçilərlə maraqlanır və biləndə ki, orada Şəroye Bro iştirak edəcək, mütləq gələcəklərini deyirdilər.

Artıq 24 yaşında Şəroye Bro tanınmış, aparıcı musiqiçilərdən birinə çevrilir və öz pərəstişkarlarını, yaxınlarını, dostlarını sevindirməyə başlayır. Mahnılarını ifa edərkən o, hər dinləyicisi ilə daxilən intuitiv əlaqə yaradır və bu ona öz üzərində işləməyə kömək edirdi. Onun heç bir musiqi təhsili yox idi. Ancaq intuisiyası hesabına o, öz səsini emal edib, ifa manevrini və ifa tərzini düzəldir və nəticədə mükəmməl səviyyəyə çatdırmağa nail olmuşdur. "Həkimo", "Mate", "Flite Koto", "Xalo", "Rzqano", "Hozandaxe", "Şirine Alo", "Vaye vare vaye" və başqa mahnılarını dinləyərkən onun mükəmməl səs tembrinin, diapazonunun, onun ritminin, tempinin, lirik və qüsursuz ifa tərzinin şahidi olmaq mümkündür.

Bütün bunlar qorunub saxlanılan xalq mahnılarımızın, dilimizin itməyəcəyinə ümid verir və günümüzdə də Şəroye Bro mahnılarını ifa edən müğənnilər bunu təsdiq edirlər. Bu tanınmış müğənni Şivan Pərvərdir; gözəl ifaçı Şəmdindir; Rusiyada məşhurlaşan Amiddir; dinləyicisini sevindirən Fəyzoye Rzadır. Ancaq hələ də dünyanın istənilən guşəsindən olan tanınmış kürd müğənniləri bu dahi ifaçının şah əsərlərini onun kimi ustalıqla oxumağa qadir deyillər..."Həkimo", "Mate"... "Həkimo" hələ XX əsrin 30-cu illərində bəstələnib və onu yalnız güclü, ifadəli səsə malik olan müəllifin özü ifa edib.

Belçikada kürd telekanalı olan Media TV-də milli proqramlardan birinin aparıcısı, Şəroye Bro mahnılarını ifa edən Şəmdin onun haqqında veriliş hazırlayaraq yayımlayıb və milyonlarla kürd tamaşaçısına təsviredilməz bir sevinc bəxş edib. Kiminçünsə



bu veriliş Şəroe Bro haqqında xoş bir xatirəyə, kiminçünsə onunla tanışlığa çevrildi. Kürdüstanın ayrı-ayrı guşələrində və xaricdə yaşayan gənc nəsillər onun mahnılarını öyrənir və onu əziz tuturlar. Necə ki, o özü gəncliyində əmisini, böyük qardaşını əziz tuturdu. Və beləcə uşaqları, nəvələri, nəticələri onu əziz tutmağa davam edirdilər.

Şəroye Bro 24 yaşında Struki tayfasından olan Kəve Darveş ilə ailə həyatı qurur, və ailə Tbilisidə yaşayır. O dövrdə lazımi tibbi xidmət olmadığından çoxuşaqlı ailədə 8 uşaqdan 4-ü kiçik yaşlarında vəfat edir. Bu hadisədən sonra, Kəvenin valideynləri Tlikdə yaşadığından onlar bir müddətlik Ermənistana köçürlər. 1941-ci ildə Şəroye yenidən ailəsi ilə birgə Tbilisiyə, Barbolovski küçəsinə daimi yaşayış üçün köçürlər. Müharibə illərində o səfərbər edilir və "Arsenal" hərbi zavoduna göndərilir. Burada o, müharibə qurtarana qədər çalışmışdır.

Onlar üç oğullarını və qızlarını dinə, kürd milli adətənənələrinə, milli mahnılara və melodiyalara sevgi və hörmət içərisində böyütmüşdülər. Böyük oğulları Usıve Şəro atası kimi kürd toylarında, şənliklərində çalır və mahnı oxuyurdu. Şahismayıl 28 yaşında dünyasını dəyişir. Kiçik oğulları Kərəm və qizları Kaze (vəfat etmişdir) isə gözəl səsə malik idilər. Onlar hər zaman qohumlar və dostların əhatəsində oxuyurdular.

Zurnaçı Şəroye hətta 70 yaşında şənliklərdə çalıb oxuyaraq öz dinləyicilərini feyziyab edirdi. Deməк olar ki, bütün kürd milli alətlərində çalmağı bacarırdı (nağara, zurna, mei, tütək).

Şəroye Bro oxuduğu ana dilində mahnıları ilə bütün dünyanı ovsunlamağı bacarmışdır. Necə ki, vətəni - al şəfəqləri ilə, sərhədsiz düzləri ilə, mavi dumanı, sisi ilə insanı tilsimləyir. Onun əfsanəvi mahnıları kürd nənniləri kimi hədsiz və genişdirlər. Onun lirikası şair qəlbinin ən incə və səpələnmiş duyuğularının təcəssümüdür.

Ona çoxlu sayda şeirlər, hekayələr, məqalələr, radio və televiziya verilişləri həsr olunub. Ferike Usıvın "Şəronun səsi" şeirini, Vəzire Əşonun "Şair qocalib" hekayəsini bunlara nümunə göstərmək olar.

1960-ci ildə erməni radiosunun Kürd verilişləri şöbəsi Şəroye Bronu dəvət edir və onun mahnılarını lentə yazıb gələcək nəsillərə onun səsinin sahib olduğu gözəlliyi və zənginliyi ötürmüşdür.

Şəroye Bro 85 yaşında vəfat etmişdir. Fəxrlə kürd şair və musiqiçisi olan Şəroye Bronu "Dahi musiqiçi-şair" adlandırmaq olar. İfaçının təkrarolunmaz səsi dinləyicisini öz sehirli aləminə daxil edir. Onun musiqisi, nadir poeziyası, məlahətli səsi hələ də sevilməkdə və dinlənilməkdədir.

Məqalə "Yeni Baxış" («Новый Взгляд») qəzetindən götürülmüşdür.

Müəllif: Maya Qəhrəmanova

***Tərcümə etdi və hazırladı:***
***Rəna Rəhman***

# İraqda Ərdoğana qarşı üsyan

İraqda minlərlə insan Ankaranın ölkənin şimal şəhəri olam Mosul yaxınlığında qoşun yerləşdirməsinə qarşı etirazlara qoşulub. "Reuters" agentliyi xəbər verir ki, İraqın şimalında Türkiyə tərəfindən 150 hərbçinin yerləşdirilməsi bu ayın əvvəlindən Bağdad və Ankara arasında münasibətləri tarıma çəkib.

Bağdad Türkiyə qoşunlarının ölkə ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələbi ilə BMT Təhlükəsizlik Şurasına müraciət edib. Rəsmi Ankara bu tələbə etiraz edərək bildirib ki, Türkiyənin hərbi qüvvəsi İraq ərazisində beynəlxalq missiya çərçivəsində yerləşdirilib və bundan məqsəd "İslam Dövləti" adlı təşkilata qarşı döyüşən İraq qüvvələrinin təlimləndirilməsidir.

Bağdaddakı Təhrir meydanında, habelə Bəsrə şəhərində keçirilən etiraz aksiyalarında şiə silahlı birləşmələrinin üzvləri də daxil minlərlə insan "Türkiyəyə ölüm, Ərdoğana ölüm" şüarları səsləndirib. "Bədr" təşkilatının lideri, şiə millət vəkili Hadi əl-əmiri

İraqda qüdrətli hərbiləşdirilmiş "Bədr" təşkilatının lideri, şiə millət vəkili Hadi əl-Əmiri deyib ki, ölkə ərazisinə istənilən bu sayaq müdaxilə təcavüz kimi qiymətləndirilməlidir. Şiə silahlı birləşmələrinin təşəbbüsü ilə keçirilən etiraz mitinqlərində Türkiyə qoşunlarına, İraq ərazisini tərk etmədikləri təqdirdə hücum ediləcəyi vurğulanıb. "Bədr" təşkilatının



yerli komandirlərindən Amjad Salim Bəsrədə keçirilən mitinqdə əlindəki tapançanı Ərdoğanın portretinə sıxaraq deyib ki, "biz indi türk əsgərinin ayaqları altında od qalamaq üçün komandanın əmrini gözləyirik".

"Reuters" agentliyinin müxbirləri bildirirlər ki, Bağdadda keçirilən mitinqdə etirazçılar Türkiyənin dövlət bayrağını tapdalayıb və yandırıb, Ərdoğanın portretlərinə "ənənəvi ərəb təhqiri" olaraq ayaqqabılarını çırpıblar. "Əgər Türkiyə İraqın başının Daeşlə döyüşə qarışdığını görərək qoşun göndərmək fürsətində bulunursa, onda belə bir səhvə yol verərkən yaxşı-yaxşı düşünməlidir" - deyə İran tərəfindən dəstəklənən "Əsaib Əhl-əl-Həqq" qruplaşmasının yerli komandiri Əbu Muntathar əl-Musəvi bildirib.

O deyib ki, yaxın günlərdə türk əsgərlərini hədəfləməyə başlayacaqlar. Türkiyənin İraqın şimalındakı kürd muxtariyyəti və sünni ərəb qüvvələri ilə əlaqələri ölkənin cənubundakı şiə birləşmlərini xüsusilə qəzəbləndirib. İraqın dini liderləri Kərbəlada keçirilən ibadət əsnasında Türkiyəni lənətləyiblər. Böyük ayətullah Əli əl-Sistani deyib ki, Türkiyə terrora qarşı mübarizə bəhanəsi ilə başqa ölkənin ərazisində qoşun yerləşdirməməli idi. Bu arada ABŞ-ın Təhlükəsizlijk Şurasındakı nümayəndəsi Samanta Pouer deyib ki, Türkiyənin İraqa qoşun göndərməsi Bağdad hökumətini hiddətləndirib və belə addımlar yalnız İraqın razılığı əsasında atıla bilər.

Rusiya təyyarəsinin Suriya-Türkiyə sərhədində vurulmasının ardınca Moskva da Türkiyə qoşunlarının İraqa yeridilməsini "qanunsuz müdaxilə" adlandırıb (Virtualaz.org).

# Rusiya hücuma hazırlaşır

Rusiya və Suriya rejiminin əsgərləri müxalifətin əlində olan İdlibin ələ keçirilməsi üçün iki həftədir Lazikiyedə birgə hərbi təlimlər keçir. Bu barədə Almaniyanın AFP agentliyi məlumat yayıb. "Təlimlər Fəth Ordusunun nəzarətində olan İdlibə coğrafi baxımdan bənzəyən bir bölgədə keçirilir. İdlibin ələ keçirilməsi Rusiya və rejim əsgərlərinin başlıca məqsədi və ən əhəmiyyətli hədəfi olacaq", - məlumatda deyilir. İdlib müxalifət güclərinin nəzarətində olan şəhərlərdən biridir. Hələbin



cənubundan İdlib istiqamətində irəliləməyə çalışan rejim eyni zamanda İdlibin qərbində yerləşən Türkman dağı və Kürd dağı istiqamətindən də hücuma keçmək istəyir. Rejim qüvvələrinin quruda həyata keçirdiyi əməliyyatlara Rusiya havadan dəstək verəcək.

# Serok Barzanî li gel Wezîrê Bergiriyê Tirkiye û Partiyên Kurdên Bakûr re civiya

Li çarçêweya serdana fermiya Serok Barzanî ya welatê Tirkiye roja pênçşem 10.11.2015 li bajarê Enqereya paytexta Tirkiye Îsmet



Yilmaz Wezîrê Bergiriyê Tirkiye pêşwaziya birêz Mesûd Barzanî Serokê Herêma Kurdistanê û şanda li gel kir ku ji Fuad Husên Serokê Dîwana Serokayetiya Herêma Kurdistanê û Sefîn Dîzeyî Peyvdarê Hikûmeta Herêma Kurdistanê pêkhatibûn.

Li hevdîtinê de Wezîrê Bergiriyê Tirkiye pîrozbahiya azadkirina Şingal û serkeftina hêzên Pêşmergeyên Kurdistanê li Serok Barzanî kir û piştgîriya welatê xwe jî ji bo hêzên Pêşmergeyên Kurdistanê li şerê dijî Da'îş de dûpat kir û di derbarê proseya meşq û rahênana Pêşmerge ji aliyê pîsporê serbaziyên Tirkiye li çarçêweya hevpeymaniya şerê dijî Da'îş şîrovekirinên pêwîst ji bo Serok Barzanî xisterû. Her li vê kombûnê da behsa rewşa meydanî ya bereyên şerê dijî Da'îş kirin û amadekariyên plana azadkirina Musil jî xistin ber behs û guftûgoyan.

Li beşekî dinê vê kombûnê de babeta hatina artêşa Tirkiye ya Başîk û dirustbûna tengasiya li navbera Iraq û Tirkiye guftûgo kirin.

Li dirêjahiya hevdîtin û kombûnên roja pênçşem 10.12.2015 de Serok Barzanî li cihê hewandina xwe ya bajarê Enqere pêşwaziya şanda bilinda serkirdayetiya Partiya Demokrasiya Gelan kir ku ji xanim Fîgen Yuksekdag Hevserok û Ehmed Turk, Leyla Zana û Osman Baydemîr û hejmarek ji serkirdeyên bilindên HDP pêkhatibû. Li kombûnê da şanda bilinda HDP bi xêrhatina Serok Barzanî kir û nêrînên xwe yên di derbarê rewşa siyasiya Tirkiye û kêşeyên li ber proseya aştî ji bo Serok Barzanî xistin rû û daxwaz ji Serok Barzanî kirin ku carekî din rola xwe ya li destpêkirina proseyê de bibînê bo ku proseya aştî vegerê ser rêya xwe.

Her li vê kombûnê da Serok Barzanî li gotarek da behsa sedema rawestana proseya aştî û astengiyan kir û nêrîna xwe ya li ser wê xistin rû ku çawa bikarin proseya aştî bixin ser rêrewa xwe. Her wiha hêvî jî xwest ku ew kêşeyên siyasî li holê daye li bajarên Kurdnişînan nebê sedema giriftên kûrtir û hemû aliyek dest bi pêkvejiyanê bigrin û pêşanî cîhanê bidin ku çawa dikarin çanda pêkvejiyan û aştîxwaziya li navbera xwe û xelkekî din biparêzîn û pêşbixîn. Piştî vê kombûnê û êvariya heman rojê Serok Barzanî li cihê hewandina xwe ya bajarê Enqere pêşwaziya serkirdeyên hemû Partiyên Kurdên Bakûr kir û li gotarek da armanca serdana xwe ya Tirkiye xisterû ku ji nirxandina şerê Da'îş û çawayiya hevkariya Tirkiye û hevpeymanan û her wiha çareserkirina kêşe û tengasiyên di navbera Iraq û Tirkiye û proseya aştî û peywendiyên aboriyên di navbera Herêma Kurdistan û Tirkiye pêkhatibû. Li beşekî dinê axaftina xwe de Serok Barzanî têbînî û şîretên xwe yên li ser proseya siyasiya Tirkiye û rola Kurd ya amadebûyan behs kir û daxwaz jî kir ku hemû aliyek hewl bidin çanda pêkvejiyan û aştîxwaziyê li navbera pêkhatan berfirehtir bikin. Piştî vê kombûnê Serok Barzanî li civîneke rojnamevaniyê de ajandaya serdana xwe ji bo dezgehên ragihandina Kurdî xisterû û bersîva pirsiyara ragihandinkaran jî da. Hêjayî gotinêye ku êvariya roja pênçşem 10.12.2015 Serok Barzanî piştî kombûna li gel Serok Komar û Serok Wezîr û Wezîrê Derve û Bergirî û hejmarek ji berpirsên bilindên Tirkiye û çendîn hevdîtin û kombûnên din li gel aliyên Kurdên Tirkiye dawiyê bi serdana xwe ya fermî ya welatê Tirkiye anî û li rêya Firokxaneya Navdewletiya Hewlêrê vegeriya Herêma Kurdistanê.

***presidency.krd***

# Tirkiyê hêza xwe ji Başîkê vekişand

Dihok (Rûdaw)- Tirkiyê beşek mezin ji hêza xwe ya ku li parêzgeha Mûsilê bi cih kiribû, vekişand. Peyamnêrê Rûdawê li Dihokê ragihand:



"Enqere beşek mezin ji hêza xwe ya li nahiyeya Başîkî vekişand û niha karwanê wê hêzê gihîştine nêzîkî Dihokê û ji wir dê bi rêya deriyê Îbrahîm Xelîk vegerin Tirkiyê."

Peyamnêrê Rûdawê da zanîn ku, tenê beşeke biçûk ji hêza Tirk li devera Başîkê maye. Şeva borî hejmarek TIR û kamyonên leşkerî yên Tirkiyê derbasî Başûrê Kurdistanê bûn û yekser berê xwe dan devera Başîkê ya Mûsilê. Şeva 4ê Befranbarê de leşkerên tirk sînorê Herêma Kurdistanê û Iraqê derbas kirin û li bajarokê Başîkê bicih bûn. Tirkiyê li gundê Zelikan ê Başîkê navendeke leşkerî heye ku piştî êrişên DAIŞê û ketina bajarê Mûsilê, bi rêkeftin ligel Bexdayê û hikûmeta xwecihî ya Mûsilê li wê navendê perwerdeya leşkerî dida çekdarên ereb ên sunî ku jê re Heşda Niştimanî tê gotin. Derbaskirina sînorê Iraqê ji aliyê leşkerên tirk ve û bicihbûna wan li derdora Mûsilê, rastî nerazîbûnên tund ên Hikûmeta Iraqê hat û Bexdayê bertekên tund nîşan dan. Rayedarên Iraqê di vê bareyê de daxuyaniyên tund dan û daxwaza demildest derketina hêza Tirk ji axa Iraqê kirin, lê rayedarên Enqerê digotin em hêza xwe venakişînin.

# 100 kurdên êzîdî di rêya Ewropayê de mirine

Dihok (Rûdaw) – Hikûmeta Herêma Kurdistanê eşkere kir ku heta niha derdora 100 kurdên



êzîdî di rêya koçberiya Ewropayê de jiyana xwe ji dest dane ku derdora 30 ji wan, di nav deryaya Ege de xeniqîne. Pêr êvarê (12ê vê mehê), sê qayîkên ku derdora 45 kurdên êzîdî lê siwar bibûn û ji bo derbasî Ewropayê bibin, diçûn Yûnanistanê, ketin bi navê. Di wê bûyerê de tenê 2 kes filitîn, yên din hemû mirin û wenda bûn. Kurmamê yek ji wan kurdên êzîdî yên wê rojê di nav deryayê de xeniqîbû, Xwedêda Reşo ji Rûdawê re behsa wê bûyerê kir û got, me ji wan re got neçin lê wan guhdarî me nekirin. Xwedêda da zanîn ku ji wan kesan tenê kurmamê wî Qewal û biraziyeke wî rizgar bûne her wiha tenê cenazeyên kurmamê wî Hecî û kurekî Qewal hatine dîtin ku niha li nexweşxaneyeke bajarê Atîna yê Yûnanistanê ne. Li gorî agahiyên Xwedêda Reşo, îro (14ê mehê) dê cenazeyên hinek ji wan kurdên êzîdî yên di deryaya Ege de xeniqîbûn, ji Ewropayê derbasî Kurdistanê bibin. Li gorî amarên ne fermî, nêzîkî nîv milyon kurdên êzîdî li Kurdistan û Iraqê hene. Ji ber şerê DAIŞê gellek ji wan koçberî Ewropa û Amerîka bûne lê hejmarek ji wan beriya ku derbasî wan welatan bibin, di rê de jiyana xwe ji dest dane. Rêveberê Giştî yê Karûbarên Êzîdiyan li Wezareta Ewqafê ya Kurdistanê, Xeyrî Bozanî ji Rûdawê re got, bi qasî ku em dizanin 45 kurdên êzîdî ketine nav deryaya Ege ku 31 ji wan xeniqîne, piraniya wan jî xelkê bajarê Şingalê bûne. Bozanî diyar kir ku wan bi Balyozê Iraqê li Atînayê re axivîne û jê re gotine, ji bo hanîna cenazeyên wan kurdên êzîdî, alîkariya wan bikin. Wî rayedarê hikûmeta Kurdistanê her wiha got, piştî şerê DAIŞê derdora 70 hezar kurdên êzîdî koçber bûne ku nêzîkî 100 kes ji wan di rêya koçberiyê de mirine, hinek jî nayê zanîn çi hatiye serê wan.

# Heyva Sor bi riya Rêxistina HAWAR-ê 500 çente radestî Dibistana Kobanê kir

Hêva Sor a Kurdisatnê bi riya HAWARê û Rojavayê Kurdistanê kir. Hêjayî gotinê ye ku



Encûmena Penaberêpn Rojavayê, 500 çenteyên xwendekaran bi ser debistana Kobanê re belav kir. Îro roja duşemê, 16-11-2015`an li bajarê Silêmaniyê, Bi amadebûna serokê Rêxistina Hawar ya Mafên Penaberên Kurd-Sûriyê Hozan Efrînî û Serokê Encûmena Penaberên Rojavyê Hecî Efrînî û rêveberê Dibistana Kobanê kak Cebar, dest bi radestkirina 500 çenteyên xwendekarên dibistana seretayî li dibistana Kobanê ya penaberên ew alîkariya bi riya endamê rêveberiya Rêxistina Hawar ya Mafên Penaberên Kurd-Sûriye Eladîn Mistefa Mişo Kobanê ji Heyva Sor a Kurdistanê hat wergirtin û piştî demekê ku ew ber bi welatê Namsayê birêket, îro Rêxistina Hawarê ew hevkarî radestî Encûmena Penaberan ya Kurd li Silêmaniyê kir û piştre jî bi ser çagirtên Dibistana Kobanê de hat belav kirin.

Bi wêneyan belavkirina çenteyên xwendekaran bibînin. PUK-media-Taybet

# Dr. Berhem û konsolê giştiyê Rûsya civiyan

Îro 10/12/2015, Dr. Berhem Salih li bajarê Hewlêrê pêşwazî li konsolê giştiyê Rûsya li herêma Kurdistanê Vîktor Sîmakov kir û sebaret bi guhertinên navçeyê û çawaniya xortkirina pêwendiyên siyasî û aboriyên navbera herêma Kurdistanê û Rûsya de goftûgo kirin. Her di wê hevdîtinê de, pêşveçûn û rûdanên



qadên siyasî û emnî yê li Kurdistanê û Îraqê û navçeyê hatin gotûbêj kirin, bi taybetî jî şerê li dijî grupa terorîstî ya DAIŞ û metirsiyên wan li ser aramiya navçeyê her weha teqez li wê yekê hatiye kirin ku pêwîste hevpeymaniya navdewletî berferehtir û karîgertir bikin bo lêdana DAIŞ û jinavbirina ew metirsiyên mezin li ser asayîşa navçeyê û cîhanê. Di civînê de behsa wê yekê jî hatiye kirin ku moşekbarankirina baregehên DAIŞ li Sûriyê nebête sedema pirsgirêkên hatûçûna welatiyan û geştên asmanî li Kurdistanê. Di beşek din ya hevdîtinê debehsa xortkirina pêwendiyên navbera herêma Kurdistanê û Rûsyayê hate kirinê.

# Hêzên kurdî 40 têrorîstên DAÎŞ li herêma Hesekê tunekirin

Ajansa Şam-Prêss li ser zarê nûnerê fermî yê YPG Nasir Haj ragihand ku hêzên YPG 40 têrorîstên DAÎŞê li herêma Hesekê tunekirne. Wek Haj dibêje, di şerî Tel-




Tamir û Tel-Hamîsê de 10 şervanên YPG şehîd bûn. Li gor nerîna nûnerê civata leşkerî ya YPG Rêdor Xelîl, Tel-Hamîs ku di 27 Şibatê de hat rizgarkirin, wek enya pêşîn ya bergirya Mûsilê dihat hesêb. Her weha, Xelîl got ku hebûna çekdaran li Tel-Temirê jibo tevaya herêma Hesekê xeter bû. Hêzên kurdî bêtir ji mehekê ye ku bergirya bajarên sere-Kaniyê û teltemrê dikin. Bi dehan gundên aşûryan li vê deverê hîn di bin kontrola DAÎŞê de ne.

## Barzanî banga Efrînê kir: Em bi we re ne

Serokê Herêma Kurdistanê Mesûd Barzanî derbarê dorpêça li ser Kantona Efrînê ya Rojavayê Kurdistanê de daxuyanî da û bang ji civaka navdewletî kir. Serokatiya Herêma Kurdistanê îro di daxuyaniyeke nivîskî de ragihand, Serokê Herêma Kurdistanê Mesûd

**BARZANÎ EFRÎNÊ BI TENÊ NAHÊLE**

